

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

16 iyul 2025-ci il, çərşənbə
№ 121 (6948)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


## İlham Əliyev: Azərbaycan və Türkiyə gələcəyə doğru çiyin-çiyinə, inamla və uğurla irəliləyir

# Sarsılmaz qardaşlıq, dünyada bənzəri olmayan birlik və strateji müttəfiqlik



Bax səh. 2

# Azərbaycanın unikal təcrübəsi Yaxın Şərqdə

Bax səh. 3



## Sülhə qarşı "hücum" cəhdi?

Bax səh. 5

## Siyasi dialoq: siyasi sistemimizin ayrılmaz hissəsi...

Son illərdə Azərbaycanda siyasi dialoq mühitinin formalaşması və davamlı şəkildə inkişaf etməsi milli həmrəyliyin möhkəmlənməsində, siyasi münasibətlərin sağlam əsaslar üzərində qurulmasında mühüm rol oynayır. Müxtəlif siyasi spektri təmsil edən partiyaların nümayəndələrinin bir masa ətrafında toplaşması, ümummilli məsələlərlə bağlı ortaq mövqenin ifadə olunması ölkədə dayanıqlı siyasi sabitliyin və demokratik proseslərin təməl sütununa...

Bax səh. 4



## Media qanunvericiliyində mühüm dəyişikliklər

Bax səh. 3

# Tarixi razılaşma...

Bax səh. 5

## Azərbaycan-Vyetnam: İqtisadi əməkdaşlığın yeni perspektivləri

Bax səh. 4

## 50 gün möhlət...

ABŞ Prezidentinin şərtləri yerinə yetirilməsə, Rusiyanı ciddi problemlər gözləyir

Bax səh. 6

## Qəbulə xanım və I Pyotr

Qəbulənin I Pyotra məktubu: "Salyan mahalı 122 ildir ki, mənim əcdadlarım tərəfindən idarə olunur"

Bax səh. 7



## "Gürcü arzusu"ndan Avropaya məktub...

Bax səh. 6



## Ukrayna sürətlə silahlanır

Bax səh. 7

# Sarsılmaz qardaşlıq, dünyada bənzəri olmayan birlik və strateji müttəfiqlik

## İlham Əliyev: Azərbaycan və Türkiyə gələcəyə doğru çiyin-çiyinə, inamla və uğurla irəliləyir

Azərbaycan ilə Türkiyə arasında formalaşan münasibətlər dünya siyasətində bənzəri az rast gəlinən bir modeldir. Bu münasibətlər sadəcə klassik diplomatik və strateji tərəfdaşlıqla məhdudlaşmır - əksinə, tarixə, dilə, mədəniyyətə və ortaq milli kimliyə əsaslanan sarsılmaz bir qardaşlıq bağını əks etdirir. Ulu Öndər Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamı bu münasibətlərin fəlsəfəsini ifadə etməklə bərabər, bu gün hər iki ölkənin daxili və xarici siyasətində qarşılıqlı etimad və həmrəyliyin əsas sütununa çevrilmişdir.

Tarix boyu eyni coğrafi taleyi paylaşan Azərbaycan və Türkiyə, müstəqilliklərini qorumaq və bölgədə sabitliyi təmin etmək üçün dəfələrlə bir-birinə arxa durmuş, milli maraqlar naminə vahid mövqe nümayiş etdirmişlər. Bu münasibətlər xüsusilə 2020-ci il Vətən müharibəsində öz zirvəsinə çatdı. Türkiyənin siyasi, diplomatik və mənəvi dəstəyi təkcə Azərbaycan xalqı üçün deyil, bütün Türk dünyası üçün qürur mənbəyinə çevrildi. Müharibə dövründə Prezident Rəcəb Tayyib Ərdoğanın və Türkiyə dövlət aparatının açıq şəkildə Azərbaycanın yanında yer alması, beynəlxalq səviyyədə böyük rezonans doğurmaqla yanaşı, Cənubi Qafqazda güc balansına da ciddi təsir göstərdi.

### Qardaş Türkiyənin müasir tarixinin ən böyük qəhrəmanlıq salnaməsi...

Vurğulandığı kimi, Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərin bənzərsizliyini ifadə edən ən güclü dəyərlərdən biri də çətin zamanlarda göstərilən qarşılıqlı dəstəkdir. Tarixin müxtəlif dövrlərində bu iki qardaş ölkə birbirinin ağrılarını bölüşməkdən, beynəlxalq təzyiqlər qarşısında birlik nümayiş etdirməkdən və ən gərgin siyasi məqamlarda belə səmimi dəstək göstərməkdən çəkinməyib.

Azərbaycan Prezidenti İlham Əliyevin iyulun 15-də 2016-cı ildə Türkiyədə baş verən hadisələrin ildönümü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana məktub ünvanlayıb. Prezident İlham Əliyev türkiyəli həmkarına doqquz il əvvəl - 15 iyul tarixində Türkiyədə dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda şəhid olmuş bütün qardaş-bacılarımızın əziz xatirəsini dərin hörmət və ehtiramla yad etdiyini, ailələrinə və bütün xalqınıza dərin hüznlə başsağlığı verdiyini bildirib. “Həmin gecə qardaş Türkiyə müasir tarixinin ən böyük qəhrəmanlıq salnaməsini yazdı. Mətin və mübariz xalqınız Türkiyə Respublikasının konstitusional və demokratik əsaslarını hədəfə alan qanlı çevriliş cəhdinə qarşı sinəsini sipər edərək Vətəninə, bayrağına və dövlətinə sahib çıxdı. Bu gün qürurla deyə bilərik ki, 15 İyul - “Demokratiya və Milli Birlik Günü” güclü və sarsılmaz iradənin, milli birliyin, həmrəyliyin və vətənpərvərliyin zəfərini qeyd edən əlamətdar tarixdir”, - deyə vurğulanın məktubda o da qeyd olunur ki, xain çevriliş cəhdinin ilk anlarından etibarən Azərbaycan xalqı və dövləti qardaş Türkiyənin yanında olaraq öz dəstəyini və həmrəyliyini nümayiş etdirmişdi. Bu da növbəti dəfə “Bir millət, iki dövlət” prinsipinin əyani təzahürü, qardaşlığımızın bariz nümunəsi idi: “Türkiyə dövlətinə qarşı yönəlmiş bu məkrli planın önlənməsi Sizin liderliyiniz, böyük fədakarlığınız və xalqınızın Sizin ətrafınızda sıx birləşməsi sayəsində mümkün olmuşdur. Qardaş ölkəniz bu ağır sınaqdan da üzüağ, alnıaçıq və daha da güclənmiş çıxaraq bütün dünyaya öz qüdrətini bir daha sübut etdi. Siz hazırda da “Terrorsuz Türkiyə” hədəfinin reallaşması, gələcək nəsillərə təhlükəsiz, dinc və firavan ölkə miras qoymaq uğrunda qətiyyətlə və əzmlə çalışırsınız. Bu yaxınlarda PKK terror qruplaşmasının özünü ləğv etmək və silahı yerə qoymaq qərarı Sizin güclü siyasi iradənizin parlaq nəticəsi, milli birlik və həmrəyliyin təntənəsi oldu. Bu gün Azərbaycan və Türkiyə gələcəyə doğru çiyin-çiyinə, inamla və uğurla irəliləyir. Ölkələrimizin sarsılmaz qardaşlığı, dünyada bənzəri olmayan birliyi və strateji müttəfiqliyi həm regionumuz, həm də bütün dünya üçün mühüm təhlükəsizlik, tərəfdaşlıq və inkişaf amilidir. Əminəm ki, tarixən bir-birinə dayaq olmuş qardaş xalqlarımızın iradəsindən, eləcə də Şuşa Bəyannaməsindən qaynaqlanan strateji müttəfiqliyimiz birgə səylərimizlə bundan sonra da daha da möhkəmlənəcək və dərinləşəcəkdir. Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram”.

### Türkiyə yanımızda dayandı...

Bəli, iki qardaş ölkə hər zaman - ən çətin, ən ağır, ən vacib anlarında çiyin-çiyinə, yanyana durmağı bacarır, qardaşlığı sarsılmaz birliyə çevirir, ən böyük problemlərin öhdəsindən gəlir. Bu münasibətlərdə yalnız diplomatik jestlər deyil, real siyasi, mənəvi dəstək, dayaq konkret nəticələrlə müşayiət olunub. 2020-ci il Vətən müharibəsi bu qardaşlıq münasibətlərinin ən bariz nümunələrindən biridir - həmin dövrdə Türkiyə dövlət başçısından tutmuş, sadə vətəndaşına qədər Azərbaycanın yanında oldu. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açıq şəkildə verdiyi bəyanatlar, Türkiyə mediasının və ictimaiyyətinin Azərbaycana sonsuz dəstəyi xalqımıza stimul və əlavə güc verdi - bu dəstək təkcə hərbi və siyasi aspektdən deyil, psixoloji baxımdan da mühüm anlam daşıdı. Azərbaycan xalqının ədalət yolunda, haqq yolunda tək olmadığını bütün dünya gördü.



### Azərbaycanın qardaş dəstəyi...

Eyni zamanda, Türkiyə özü də zaman-zaman terror təhlükəsi, təbii fəlakətlər və beynəlxalq təzyiqlərlə üzləşdiyi dövrlərdə Azərbaycanın qardaşlıq mövqeyini hiss edib. Vurğulandığı kimi, 2016-cı il iyulun 15-dən 16-na keçən gecə Türkiyədə xəyanətkar qüvvələr tərəfindən dövlət çevrilişinə cəhdi zamanı Azərbaycan xalqının ürəyi qardaş Türkiyə ilə döyündü. Dövlət çevrilişinə cəhd hadisələri Azərbaycanın siyasi rəhbərliyi, şəxsən Prezident İlham Əliyev tərəfindən birmənalı şəkildə qınanıldı və Türkiyənin qanuni hakimiyyətinə həmrəylik nümayiş etdirildi.

Türkiyədə episentri Kahramanmaraş şəhərinə düşən 7,7 və 7,6 bal gücündəki dağıdıcı zəlzələ zamanı iki qardaş xalqın dostluğu növbəti dəfə sınaqdan çıxdı. Belə ki, Azərbaycan Türkiyəyə yardıma birinci gələn və fəlakət bölgəsini sonuncu tərk edən ölkə olub. Zəlzələnin ilk günü - fevralın 6-da Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin 420 nəfərdən ibarət çevik xilasetmə qüvvələri Türkiyəyə yola düşüb. Fevralın 7-də ilkin olaraq mobil səhra hospitalı və 41 nəfərdən ibarət peşəkar tibbi və qeyri-tibbi heyət Türkiyəyə göndərilib. Daha sonra isə növbəti təyyarə ilə dağıntılardan ziyan çəkmiş insanların yerləşdirilməsi üçün çadırlar, ədyal və qızdırıcılar, habelə mobil səhra hospitalı üçün 3 ədəd konteyner göndərilib. Fevralın 8-də Fövqəladə Hallar Nazirliyinin daha 227 nəfərdən ibarət çevik xilasetmə qüvvələri qardaş ölkəyə yola düşüb. Dövlət xətti ilə texniki dəstək və humanitar yardımlar sonrakı günlərdə də ardıcıl şəkildə davam etdirilib.

Bundan başqa, birinci xanım Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondu Türkiyənin zəlzələ bölgəsinə humanitar yardımlar yola salıb. Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi (RİİB) Türkiyənin ölkəmizdəki səfirliyinin zəlzələ bölgəsinə humanitar yardım göstərilməsi məqsədi ilə Azərbaycan vətəndaşlarına çağırışına qoşularaq qardaş ölkəyə dəstək məqsədilə humanitar yardım kampaniyasına start verib. Deyə bilərik ki, Heydər Əliyev Fondunun çağırışı ilə bu kampaniyaya bütün Azərbaycan cəmiyyəti qoşulub.

Bu il iyunun 19-da isə Türkiyənin Kahramanmaraş şəhərində iki qardaş ölkənin birliyinin növbəti rəmzi əyani şəkildə nümayiş etdirildi - Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə “Azərbaycan məhəlləsi”nin açılış mərasimi keçirildi. Bu layihə təkcə bir tikinti layihəsi deyildi, eyni zamanda, Azərbaycan və Türkiyə qardaşlığının, ağır günlərdə bir-birinə dayaq olmağın, dostluq və həmrəyliyin əyani nümunəsi idi. “Azərbaycan məhəlləsi” iki ölkə arasında humanitar həmrəyliyin və strateji tərəfdaşlığın gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

İki ölkənin qardaşlığının əsas nümunələrindən biri də rəsmi müttəfiqlik əhdidir - 2021-ci il iyunun 15-də Şuşada imzalanan Bəyannamə qardaşlığın ən böyük rəsmi təsdiqi kimi tarixə yazıldı.

Beləliklə, Azərbaycan ilə Türkiyə arasında münasibətlər sadəcə maraqların üst-üstə düşməsi ilə formalaşmayıb - bu münasibətlər sınaqlardan keçmiş, möhkəmlənmiş və dəyərlərə əsaslanan bir modeldir. Belə bir qardaşlıq müasir dünyada nadir rast gələn strateji və mənəvi ittifaqdır.

**P.SADAYOĞLU**

# Şəxsiyyət vəsiqələri dəyişdirilir

Milli Məclis “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” və “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanunlarının tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsini üçüncü oxunuşda təsdiqləyib. Dəyişikliklərdə şəxsiyyət vəsiqəsində əks olunan məlumatların tərkibinin müvafiq qaydada yenilənməsi nəzərdə tutulur. Qanun layihəsinə əsasən, şəxsiyyət vəsiqəsinin məlumatları onun üzərində, elektron daşıyıcısında, “Giriş-çıxış və qeydiyyat” idarələrarası məlumat-axtarış avtomatlaşdırılmış sistemində (İAMAS) yer alan məlumatlardan ibarət olacaq.

### Şəxsiyyət vəsiqələrinin dəyişdirilməsini şərtləndirən əsas amillər

Milli Məclisdə aparılan müzakirələrdə vurğulanıb ki, dəyişiklik layihəsi Azərbaycan vətəndaşının şəxsiyyət vəsiqəsinin Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) 9303 nömrəli standartının tələblərinə uyğunlaşdırılması, həmçinin şəxsiyyət vəsiqəsinin istifadəsi üzrə yaranmış bəzi çətinliklərin aradan qaldırılması məqsədilə hazırlanıb.

Məlumata görə, Azərbaycan vətəndaşının şəxsiyyət vəsiqəsi səyahət sənədi kimi də (hazırda Türkiyəyə münasibətdə. Gələcəkdə isə bu siyahının genişlənəcəyi gözlənilir - red.) istifadə olunur. Şəxsiyyət vəsiqəsinin üzərində şəxsin ünvanı barədə məlumatın əks olunması vəsiqənin istifadəsi üzrə bəzi çətinliklərə səbəb olur. Bu baxımdan, şəxsiyyət vəsiqəsinin formasında və üzərində olan məlumatların dairəsində dəyişiklik edilməsi zərurəti yaranıb. Buna görə də şəxsiyyət vəsiqəsində əks olunan məlumatların tərkibinin yenilənməsi təklif olunur. Belə ki, şəxsiyyət vəsiqəsində göstərilən məlumatlara yaşayış yeri və vətəndaşlıq məlumatları əlavə ediləcək. Eyni zamanda elektron daşıyıcıda (çipdə) əvvəlki variantla müqayisədə yalnız daha zəruri məlumatların saxlanılması təklif olunur.

Təklif olunan digər dəyişiklik ondan ibarətdir ki, vətəndaşın ailə vəziyyəti, valideynləri, uşaqları, hərbi vəzifəsi və digər məlumatlar artıq birbaşa elektron daşıyıcıda deyil, IAMAS vasitəsilə saxlanılacaq və kriptoqrafik mühafizə olunacaq. Şəxsiyyət vəsiqəsi ilə bağlı məlumatların kriptoqrafik mühafizəsi, onların məxfiliyinin, bütövlüyünün və icazəsiz müdaxilədən qorunmasının təmin olunması məqsədini daşıyır.

Beləliklə, təklif olunan bu dəyişikliklər şəxsiyyət vəsiqəsi ilə bağlı məlumatların daha müasir sistemlərdə, təhlükəsiz və çevik şəkildə idarə olunmasını, həmçinin sənədləşmə prosedurlarının və xidmətlərin vətəndaş üçün sadələşdirilməsini təmin edəcək.

### Yeni nəsil şəxsiyyət vəsiqəsinin fərqli cəhətləri

Yeni nəsil şəxsiyyət vəsiqəsinin üzərində vətəndaşın soyadı, adı, atasının adı, vətəndaşın cinsi, doğulduğu tarix, vətəndaşlığı, doğulduğu yer, yaşayış yeri, qan qrupu, fərdi identifikasiya nömrəsi, vəsiqənin nömrəsi, verilmə tarixi və etibarlılıq müddəti göstəriləcək. Burada həmçinin şəxsiyyət vəsiqəsi sahibinin şəxsi imzası və Beynəlxalq Mülki Aviasiya Təşkilatının tələblərinə uyğun fotoşəkli yerləşdiriləcək.

### Şəxsiyyət vəsiqəsinə yerləşdirilən elektron daşıyıcıya (çipə) aşağıdakı məlumatlar daxil ediləcək:



- vətəndaşın soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi, vəsiqənin verilmə tarixi, şəxsiyyət vəsiqəsi sahibinin şəxsi imzası və Beynəlxalq Mülki Aviasiya Təşkilatının tələblərinə uyğun fotoşəkli;
- vətəndaş soyadını və adını dəyişdiribsə, əvvəlki soyadı və adı;
- vətəndaşın əl-barmaq izləri;
- şəxsiyyət vəsiqəsini verən orqanın adı;
- “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə”də nəzərdə tutulduğu halda digər məlumatlar.

Şəxsiyyət vəsiqəsinin məlumatları Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) biləcək. Şəxsiyyət vəsiqəsinin məlumatlarının Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi şəxsiyyət vəsiqəsinin təqdim edilməsinə bərabər tutulacaq.

Hansı hallarda şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi zəruri olacaq?

Qanun layihəsində vəsiqənin verilməsi qaydalarına da dəyişikliklər təklif olunur. Vəsiqə dəyişdirilməli olan hallara yaşayış yerinin dəyişməsi əlavə edilir.

Bundan başqa, şəxsiyyət vəsiqəsinin müvafiq dövlət informasiya sistemlərinə (ehtiyatlarına) daxil edilmiş şəxsiyyət vəsiqəsi məlumatlarında səhv müəyyənləşdirildikdə səhv məlumatları daxil etmiş orqana vəsiqə təqdim edildikdən dərhal sonra (ən geci 30 dəqiqə ərzində) həmin məlumatlar dövlət rüsumu alınmadan dəyişdiriləcək.

Aşağıdakı hallarda yeni şəxsiyyət vəsiqəsi alınmalıdır:

-Vəsiqənin müddəti bitdikdə
-Ad, soyad, ata adı dəyişdikdə
-Şəkil köhnəldikdə:
-Vəsiqə itirildikdə və ya yararsız hala düşdükdə:
-Vətəndaşın yaşı 15-ə çatdıqda:
-Vəsiqə texniki cəhətdən yararsız olduqda.

**Mübariz FEYİZLİ**

# Azərbaycanın unikal təcrübəsi Yaxın Şərqdə

Müstəqil Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıllıqla həyata keçirdiyi məqsədyönlü siyasət sayəsində ölkəmiz beynəlxalq səviyyədə böyük nüfuz qazanıb. Bu gün iqtisadi və siyasi müstəqilliyini tam təmin edən Azərbaycan bütün dünyada öz problemlərini özü həll etməyə qadir olan, paralel şəkildə qlobal həmrəylik təşəbbüsləri irəli sürən, beynəlxalq əməkdaşlığa və təhlükəsizliyə sanballı töhfələr verən ləyaqətli ölkə kimi qəbul edilir və hörmət göstərilir.

Qısa müstəqillik tarixində Azərbaycan xoş məram ortaya qoymaqla xalqlar, qitələr və sivilizasiyalar arasında körpülər yaradan ölkəyə çevrilib. Geniş İslam coğrafiyasında yerləşən dövlətləri birləşdirən müxtəlif təsisatlarda fəal rol alan respublikamız, eyni zamanda, Avropa İttifaqının (Aİ) on üzv ölkəsi ilə strateji tərəfdaşlıq münasibətləri qurub ki, bu da bütün dünya üzrə nadir nümunələrdən biridir. Bəşər Əsəd rejiminin devrilməsindən sonra Suriya Ərəb Respublikasında hakimiyyətə gələn keçid dövrü iqtidarı ilə sıx təmasların qurulması isə Azərbaycanın çoxvektorlu xarici siyasət kursunda daha bir perspektivli istiqamətin əsasının qoyulmasından xəbər verir. Bu o anlama gəlir ki, respublikamız artıq Yaxın Şərqdə də güclü dövlət kimi qəbul olunur və onun yaratdığı unikal iqtisadi model burada da cəlbedici görünür.





## Azərbaycan Suriyaya dəstəyini ilk ifadə edən dövlətlərdən biridir

Tarixən Azərbaycanla Suriya arasında sıx bağlar olsa da, Bəşər Əsəd iqtidarı dönəmində əlaqələr demək olar ki, tamam kəsilmişdi. Müasir, demokratik inkişaf yolu tutan, dünyaya multikulturalizm ideyaları aşılayan Azərbaycan Suriyada despotizmə əsaslanan siyasət həyata keçirən Bəşər Əsəd rejimini qəbul edə bilməzdi və etmirdi də. Respublikamızın işğala məruz qaldığı illərdə təcavüzkar Ermənistana hərtərəfli dəstək göstərən cinayətkar rejimlərdən biri də məhz Bəşər Əsəd iqtidarı idi. Onun açıq və gizli göstərişləri əsasında Suriyadan Ermənistana silahlar daşınır və terrorçu dəstələr göndərilirdi. Bu tendensiya xüsusilə 44 günlük müharibə dövründə daha da güclənmişdi. Belə bir faktı da vurğulamaq yerinə düşər ki, işğal illərində Suriyadan gətirilən ermənilərdən Qarabağın qeyri-qanuni məskunlaşdırılmasında bir alət kimi istifadə olunub.

İstibdad, zülmə əsaslanan siyasət süquta məhkumdur və biz bunu Suriyada Bəşər Əsəd rejiminin xalq tərəfindən devrilməsinin timsalında bir daha gördük. Öz xalqının nifrətini qazanan Bəşər Əsəd ölkəsindən qaçmaq məcburiyyətində qaldı.

Artıq Suriyada yeni dönəm başlayıb. Ölkənin keçid dövrü hakimiyyəti Bəşər Əsəd rejiminin kədərli miraslarının aradan qaldırılması kimi ağır bir prosesə başlayıb. Çətinliklə də olsa, işlər irəliləyir. Hədəflərdən biri də Suriyaya dost ölkələrlə zamanında bəlli səbəblərdən pozulmuş əlaqələri bərpa etməkdir ki, Azərbaycan da bu sırada ön mövqelərdə dayanır.

Azərbaycan Suriyanın keçid iqtidarını dəstəkləyən ilk ölkələrdən biridir. Artıq 12 illik fasilədən sonra Suriyada Azərbaycan səfirliyinin fəaliyyəti bərpa olunub. Respublikamızdan dost ölkəyə yardım karvanı yola salınıb. Xatırladaq ki, ötən ilin dekabrında Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyevin rəhbərlik etdiyi nümayəndə heyəti Suriyada səfərdə olub. Səfər çərçivəsində 29 dekabr tarixində nazir müavini Yalçın Rəfiyev ilə Suriyanın keçid hökumətinin xarici işlər naziri Əssad Həsən Əş-Şibani arasında görüş keçirilib. Görüş zamanı Suriyada yeni mərhələnin başlaması, habelə xalqın nümayəndələrinin hakimiyyətə gəlməsi münasibətilə Azərbaycan rəhbərliyinin təbrikləri çatdırılıb. Azərbaycanın bu yeni yaranmış vacib mərhələdə Türkiyə Respublikası ilə birlikdə Suriyanın yanında olduğu bildirilib.

Cari il aprelin 11-də isə qardaş Türkiyədə IV Antaliya Diplomatik Forumu çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraa arasında görüş baş tutub. Bu görüşü indiki mərhələdə Bakı ilə Dəməşq arasında yeni məzmunlu münasibətlərin qurulması yolunda çox mühüm addım kimi dəyərləndirmək mümkündür. Həmin görüşdə liderlər ikitərəfli münasibətlərin bərpa olunmasının daha sürətlə həyata keçirilməsinin zəruriliyinə xüsusi vurğu ediblər. Bu da tərəflərin niyyətinə dəlalət edir - həm Azərbaycan iqtidarı, həm də Suriyanın yeni hakimiyyəti əlaqələrin qurulmasında və genişləndirilməsində maraqlıdırlar.

Görüşdə həmçinin Azərbaycan - Suriya - Türkiyə üçtərəfli formatının inkişaf etdirilməsinin vacibliyi barədə fikir mübadiləsi aparılıb və bu format çərçivəsində müxtəlif istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsinin zəruriliyi vurğulanıb. Məhz həmin görüşdən sonra Prezident İlham Əliyevin tapşırığı əsasında Baş nazirin müavini Samir Şərifovun rəhbərlik etdiyi geniş tərkibdə nümayəndə heyətinin Suriyaya səfəri baş tutub. Səfər Suriyanın bərpasına, inkişafına dəstək və bu ölkənin hazırkı keçid hökuməti ilə müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyat, enerji, mədəniyyət və təhsil sahələrində əməkdaşlıq imkanlarını araşdırmaq məqsədi daşıyıb. Səfər çərçivəsində Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa Azərbaycan nümayəndə heyətini qəbul edib.

Liderlərin Antaliya Forumundakı görüşündən üç ay sonra isə Suriyanın keçid dövrü Prezidentinin ölkəmizə səfəri baş tutub. İyulun 12-də Azərbaycan Prezidenti İlham Əliyevin Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə geniş tərkibdə görüşü olub. Uzun illər ərzində Azərbaycana münasibətdə qeyri-dost siyasəti həyata keçirən Suriyadakı əvvəlki hökumətin vaxtında münasibətlərimizdə durğunluğun olduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, Suriyada yeni hakimiyyətin qurulmasından sonra əlaqələrimizin inkişafı üçün böyük perspektivlər açılıb. Öz növbəsində Əhməd Əl Şaraa da əvvəlki hakimiyyətin Suriyanın bir çox ölkələrlə, o cümlədən Azərbaycanla əlaqələrə xələl gətirdiyini təəssüflə qeyd edib. O, ölkəsinin Azərbaycanla siyasi, iqtisadi-ticari, mədəni, humanitar və digər sahələrdə əməkdaşlıqda maraqlı olduğunu deyib.

Prezident İlham Əliyevin tapşırığına əsasən Azərbaycan nümayəndə heyətlərinin yuxarıda bəhs olunan səfərləri çərçivəsində Suriyanın bərpa və quruculuğuna respublikamızın nə kimi dəstək verə biləcəyi ətraflı şəkildə öyrənilib. Suriya ilə Azərbaycan müəyyən mənada oxşar talelər yaşayıblar. Otuz illik işğal dövründə respublikamızın çoxlu sayda şəhər və kəndi dağıdılıb, mülki infrastruktur sıradan çıxarılıb. Məlum hadisələr zamanı Suriyada da dəhşətli dağıntılara yol verilib. Qalib Azərbaycan postmüharibə dönəmində işğaldan azad edilmiş ərazilərdə yaşayış məntəqələrinin, mülki infrastrukturun, tarixi abidələrin bərpası, yeni iş yerlərinin yaradılması istiqamətində unikal təcrübə qazanıb. Bu təcrübədən istifadə etməklə Azərbaycan Suriyanın bərpasına öz köməyini göstərə bilər.

Bütövlükdə, müxtəlif istiqamətlərdə geniş əməkdaşlıq imkanları var. Enerji dialoqu ikitərəfli münasibətərin çox mühüm istiqamətlərindən biri ola bilər. Təsadüfi deyildir ki, liderlər arasında bugünlərdə Bakıda baş tutan görüşdə ölkələrimiz arasında xüsusilə enerji sahəsində əməkdaşlığın vacibliyi qeyd edilib, Suriyanın hazırda ciddi enerji problemi ilə üzləşdiyi bildirilib. Bu xüsusda yaxın zamanlarda Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracı layihəsinin həyata keçiriləcəyi vurğulanıb və bunun Suriyanın enerji təhlükəsizliyinə töhfə verəcəyi qeyd olunub.

## Qardaş Türkiyə ilə birlikdə

Azərbaycan rəsmiləri ilə Suriyanın keçid dövrü iqtidarı nümayəndələri arasında baş tutan görüşlərdə Azərbaycan - Suriya - Türkiyə üçtərəfli formatına istinad edilməsi təsadüfi deyil. Son illərdə Türkiyə Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə müxtəlif sahələrdə, xüsusilə də müdafiə təyinatlı hərbi məhsulların istehsalında böyük uğurlar qazanıb. Qürurverici haldır ki, bu gün qardaş ölkə qlobal gücə çevrilib və yeni dünya nizamının formalaşmasında prinsipial mövqedən çıxış edir. Suriyada müşahidə edilən son proseslərdə, o cümlədən dövlət idarəetməsinin qurulmasında, təhlükəsizlik məsələlərində, ordunun formalaşmasında da Türkiyə xüsusi rol oynayır və öz dəstəyini göstərir.

Eyni zamanda Azərbaycan və Türkiyə strateji müttəfiqlik münasibətlərinə malikdirlər. İki qardaş ölkə ikitərəfli münasibətləri ni ən yüksək səviyyəyə qaldırdıqları kimi, müxtəlif beynəlxalq təsisatlar çərçivəsində də sıx əməkdaşlıq edirlər. Bu ənənə nəzərə alınmaqla yeni formalaşan Azərbaycan-Suriya-Türkiyə üçtərəfli formatının da səmərəli şəkildə fəaliyyət göstərəcəyinə böyük əminlik yaranır. Bu formatda əməkdaşlıq siyasi və iqtisadi məzmunda ən müxtəlif istiqamətləri əhatə edə bilər. Müxtəlif görüşlərdə əminliklə vurğulandığı kimi, yeni Suriya quruculuğunda iki qardaş ölkə koordinasiyalı şəkildə fəaliyyət göstərəcəklər. Azərbaycan Türkiyə ilə birlikdə Suriyanın münaqişədən sonrakı dövrdə inkişafına, bərpa-quruculuq prosesinə töhfə verməyə hazır olduğunu ifadə edib.

## Ölkəmizin Yaxın Şərq üçün artan cəlbediciliyi

Azərbaycanın Suriyanın energetika sahəsinin bərpasına töhfə vermək iqtidarında olduğu diqqətə çatdırılıb. Əhməd Əl Şaraa hazırda ölkəsinin üzləşdiyi ciddi enerji problemlərinin həllində Azərbaycanın töhfəsinin əhəmiyyətini vurğulayaraq, bunun Suriyanın inkişafına xidmət etdiyini bildirib.

Məlumdur ki, zəngin resurslara malik olan Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Məhz respublikamızın iştirakı ilə "qoca qitə"nin yeni enerji xəritəsi formalaşıb. Avropada Azərbaycanın ədalətli enerji siyasətinə sadiqliyi yüksək dəyərləndirilir. Hazırda Azərbaycan 12 ölkəyə qaz ixrac edir. Şübhə yoxdur ki, Suriya yaxın zamanlarda bu sırada 13-cü ölkə olacaq. Burada da Azərbaycan - Suriya - Türkiyə üçbucağından bəhs etmək lazım gəlir. Belə ki, Suriya üçün nəzərdə tutulan mavi yanacaq Türkiyə üzərindən nəql olunacaq. Söhbət Suriyaya ildə 1 milyard kubmetr həcmində qaz ixracından gedir.

Beləliklə, Azərbaycan qazının ixrac coğrafiyası Yaxın Şərqə doğru genişlənir. Şübhə yoxdur ki, Suriya sonuncu dayanacaq olmayacaq. Suriya ilə qonşu ölkələr arasında əvvəllər mövcud olmuş infrastrukturu bərpa etməklə Azərbaycan qazını digər Yaxın Şərq ölkələrinə də çatdırmaq perspektivi tam realdır. Eyni zamanda, nəzərə almaq lazımdır ki, respublikamız "yaşıl enerji" potensialı ilə kifayət qədər zəngin bir ölkədir. Bu da Azərbaycanın Yaxın Şərq coğrafiyasında cəlbediciliyini artıran digər bir mühüm istiqamətdir.

*Mübariz ABDULLAYEV*

# Media qanunvericiliyində mühüm dəyişikliklər

**İnformasiya təhlükəsizliyi bütövlükdə, hər bir cəmiyyətin təhlükəsizliyində mühüm rol oynayır. Ona görə də, bu sahədə qanunverciliyin təkmilləşdirilməsi hər zaman aktual olub.**
**Digər tərəfdən, media resurslarında saxta məlumatların yayılmasının qarşısının alınması da vacib məsələlərdən biridir.**
**Artıq bu yöndə praktiki addımlar atılmaqdadır. Milli Məclisin iyulun 14-də keçirilən iclasında media ilə bağlı bir sıra qanunlara dəyişikliklər edilib. Belə ki, Mülki Məcəllədə, İnzibati Xətalar Məcəlləsində, "Media haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.**

## Saxta məlumatların yayımını qadağan edən norma müəyyən edilir

Sənədə əsasən, "Media haqqında" Qanunda "Media subyekti" anlayışı Azərbaycanda xarici media subyektlərinin filial və nümayəndəliklərini də əhatə etməsi məqsədilə genişləndirilib. Xarici media subyektlərinin filial və nümayəndəliklərinin Azərbaycanda fəaliyyət qaydasının beynəlxalq müqavilələrlə tənzimlənməsi nəzərdə tutulur, ölkəmizdə fəaliyyət göstərəcək filial və nümayəndəliyin Dövlət Vergi Xidmətində (DVX) qeydiyyatdan keçdikdən sonra Media Reyestrinə daxil edilməsi üçün müraciət etməsi tələbi gətirilir. Bununla yanaşı, "xarici jurnalistlər" ifadəsi "xarici media nümayəndələri" ifadəsi ilə əvəzlənir.

Layihədə, həmçinin saxta məlumatların dərci və yayımını qadağan edən norma müəyyən edilir. İnformasiya agentliklərinə münasibətdə xarici ölkələrdə akkreditasiyadan keçmiş jurnalistlər və digər subyektlərlə informasiya əldə edilməsi (verilməsi) barədə müqavilələr üzrə minimum say müəyyənləşdirilir, həmçinin istehsal etdikləri informasiyanın minimum nisbətinə dair tələblər təsbit olunur. Media subyektlərinin (redaksiyalarının) adlarının digər media subyektlərinin adları ilə eyni və ya oxşar olmaması, onların adlarında ictimai qaydaya, mənəviyyata və əxlaqa zidd olan, istifadəçiləri yanılda bilən ifadələrdən istifadə edilməməsinə dair norma əlavə edilir. Media Reyestrində olmayan, şantaj, böhtan xarakterli, qərəzli materiallar, saxta məlumatlar dərc edən qəzetlərin fəaliyyətinin qarşısının alınması məqsədilə onların nəşri və yayımı qadağan olunur. Media Reyestrində olmadan həyata keçirilən media fəaliyyətinin qanunsuzluğu birbaşa təsbit edilir.

Xarici media subyektlərinin filial və nümayəndəlikləri də daxil olmaqla, bütün media subyektlərinin onlayn resurslarına münasibətdə mediada dərci və yayımı qadağan olunan materiallar üzrə tədbirlərin görülməsinin Medianın İnkişafı Agentliyinin səlahiyyətlərinə aid edilməsinə dair dəyişiklik edilir.

Mülki Məcəllədəki dəyişiklikdə isə Medianın İnkişafı Agentliyinin müraciəti əsasında DVX tərəfindən bu Məcəllənin 59 - 61-ci maddələrində hüquqi şəxsin ləğv edilməsi ilə bağlı qaydalar tətbiq edilmədən Azərbaycan Respublikasında xarici media subyektlərinin filial və nümayəndəliklərinin ləğv olunaraq hüquqi şəxslərin dövlət reyestrindən çıxarılmasının təmin edilməsi nəzərdə tutulur.




## Yeni inzibati məsuliyyət...

İnzibati Xətalar Məcəlləsində Media Reyestrində olmadan fəaliyyət göstərən çap mediası subyektinin çap mediası məhsulunun həmin subyekt, nəşriyyat və ya yayıcı tərəfindən nəşri və ya yayımına görə inzibati məsuliyyət müəyyən edilir. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda isə xarici media subyektinin filial və nümayəndəliyinin beynəlxalq müqavilədə nəzərdə tutulmadan və ya Media Reyestrinə daxil edilmədən fəaliyyət göstərməsi, habelə Media Reyestrindən çıxarılması DVX tərəfindən onun ləğvi üçün əsas kimi müəyyənləşdirilir.

Parlamentin iclasında verilən məlumata görə, bu dəyişikliklər cəmiyyətin və media ictimaiyyətinin tövsiyələri, istək və təklifləri nəzərə alınaraq irəli sürülüb. Əsas məqsəd isə Azərbaycanın informasiya mühitinin qorunaraq, sağlamlaşdırılması, media brendinin və jurnalistin nüfuzunun artırılması, informasiya məkanında hər hansı neqativ hallara qarşı mübarizədə cəmiyyətin tələblərini nəzərə alaraq dövlət tənzimlənməsində həssaslığın artırılması, çevikliyin təmin edilməsidir. Qanunvericiliyə edilən bu dəyişikliklər bütün media məkanında şəffaf və sağlam mühitin formalaşmasında önəmli rol oynayacaq.

*Nardar BAYRAMLI*

# Siyasi dialoq: siyasi sistemimizin ayrılmaz hissəsi...

## Birgə səfərlər həm siyasi mədəniyyətin, həm də ümummilli ideyanın təntənəsidir

**Son illərdə Azərbaycanda siyasi dialoq mühitinin formalaşması və davamlı şəkildə inkişaf etməsi milli**



**həmrəyliyin möhkəmlənməsində, siyasi münasibətlərin sağlam əsaslar üzərində qurulmasında mühüm rol oynayır. Müxtəlif siyasi spektri təmsil edən partiyaların nümayəndələrinin bir masa ətrafında toplaşması, ümummilli məsələlərlə bağlı ortaq mövqenin ifadə olunması ölkədə dayanıqlı siyasi sabitliyin və demokratik proseslərin təməl sütununa çevrilib. Bu baxımdan siyasi partiya sədrlərinin işğaldan azad edilmiş Ağdam şəhərinə birgə səfəri də milli birliyin və siyasi dialoqun praktik təzahürüdür. Bu səfər də öz analogiyaları kimi ölkədə formalaşan yeni siyasi konfiqurasiyanın və tərəfdaşlıq mühitinin bariz nümunəsi kimi qiymətləndirilə bilər.**

### Fazil Mustafa: Azərbaycanın siyasi həyatında formalaşan dialoq mühiti strateji əhəmiyyət kəsb edir



Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin deputatı Fazil Mustafa bildirib ki, Azərbaycanda yaranmış siyasi dialoq mühiti ölkəmizin gələcəyi üçün son dərəcə önəmli bir mərhələdir. Bu gün iqtidar-müxalifət münasibətləri sağlam təməl üzərində inkişaf edir. Biz siyasi baxışlarımızda fərqli olsaq da, dövlətçilik və milli maraqlar məsələsində ortaq nöqtədə birləşirik: "Bu isə cəmiyyətimizdə həmrəyliyin möhkəmlənməsinə, siyasi münasibətlərin sivil və qarşılıqlı hörmət çərçivəsində formalaşmasına gətirib çıxarır. Bu gün cəmiyyət siyasi dialoq və əməkdaşlıq çağırışlarını dəstəkləyir. Çünki xalqımız yaxşı anlayır ki, güclü dövlət yalnız daxili sabitlik, qarşılıqlı anlaşma və milli həmrəyliyin bərqərar olduğu şəraitdə mümkün olur. Prezident İlham Əliyevin siyasi dialoq təşəbbüsü çərçivəsində atılan addımlar bu baxımdan çox önəmlidir".

Siyasi partiya rəhbərlərinin Ağdam səfərini dialoqun inkişafında növbəti mərhələ adlandıran BQP sədri bildirib ki, şəhərlə tanışlıq, görülən işlərlə yerində tanışlıq olduqca vacib bir məqamdır: "Bu, həm də siyasi etimad məsələsinin daha da güclənməsini özündə ehtiva edir. Ağdam şəhərinə gəldikdə isə, son 4 ildə şəhərin aurası dəyişib, bölgəyə yeni bir həyat gəlib. Artıq Ağdam siyasi partiya rəhbərlərini tamam fərqli obrazda qarşıladı. Mən hətta deyərdim ki, 4 il öncə dağıntılar içində itmiş, məhv olmuş Ağdam bu gün Azərbaycanın ən böyük şəhərlərindən, aparıcı iqtisadi mərkəzlərdən birinə çevrilmə potensialına malikdir. Bu olduqca sevindirici və qürurvericidir".

F.Mustafa dialoqun inkişafının Azərbaycanın siyasi palitrasına yalnız müsbət amillər qazandıracağına əminliyini ifadə edib. O qeyd edib ki, BQP siyasi dialoqun davam etdirilməsinin tərəfdarıdır: "Bizim partiya olaraq mövqeyimiz aydındır - dialoqu, əməkdaşlığı, milli maraqlar naminə birliyi dəstəkləyirik və bu istiqamətdə üzərimizə düşən məsuliyyəti dərk edirik. Siyasi sistemin sabitliyi, partiyalar arasında qarşılıqlı etimadın güclənməsi Azərbaycan cəmiyyətində dayanıqlı demokratik ənənələrin daha da dərinləşməsinə mühüm töhfə verir. "Hətta deyərdim ki, Azərbaycanın siyasi həyatında formalaşan dialoq mühiti strateji əhəmiyyət kəsb edir. Hakimiyyətlə müxalifət arasında sağlam, qarşılıqlı anlayışa əsaslanan münasibətlər, əslində, milli maraqların üst səviyyədə qorunduğunun göstəricisidir. Siyasi partiyalar arasında intensiv müzakirələrin, birgə səfərlərin təşkil edilməsi, müxtəlif platformalarda açıq fikir mübadilələrinin aparılması həm də milli həmrəyliyin güclənməsinə şərait yaradır".

### Elşad Musayev: Siyasi dialoq milli mənafelərin ideoloji fərqliliklərdən üstün tutulduğunu nümayiş etdirir



Böyük Azərabaycan Partiyasının sədri, Milli Məclisin deputatı Elşad Musayev bildirib ki, 44 günlük Zəfərdən sonra Azərbaycanın siyasi mühitində yeni yanaşmalar formalaşmağa başladı. Bu gün siyasi partiyalar ideoloji fərqlilikləri bir kənara qoyaraq Qarabağ və Şərqi Zəngəzura birgə səfərlər edirlər. Bu səfərlər yalnız informasiya xarakteri daşımır, həm də siyasi birlik mesajı verir. "Fərqli partiyaların rəhbərlərinin birgə səfərləri göstərir ki, Azərbaycanda milli maraqlar siyasi gündəmdə birinci yerdədir. Bu həmrəyliyin məhz işğaldan azad olunmuş torpaqlarda nümayiş etdirilməsi isə olduqca rəmzi və əlamətdardır. Çünki həmin torpaqlar uğrunda bir yumruq kimi birləşərək savaşmışıq. İndi də həmin birliyi sülh və quruculuq mühitində davam etdirmək zamanıdır", - deyən partiya sədri bildirib ki, Qarabağa səfərlər təkcə keçmişə baxış deyil, həm də gələcəyə ortaq baxışın formalaşması deməkdir. O, bu cür təşəbbüslərin siyasi münasibətlərə sivil yanaşmanın möhkəmlənməsinə, cəmiyyətin bütün təbəqələri arasında qarşılıqlı inamın artmasına, ümumilikdə isə milli həmrəyliyin daha da güclənməsinə xidmət edəcəyinə əminliyini bildirib: "Ağdam məni heyrətləndirdi. Bizim 2021-ci ildə etdiyimiz səfər zamanı qarşılaşdığımız Ağdamla indiki Ağdam arasında nəinki böyük fərq var - hətta tamam ayrı-ayrı şəhərlərdir deyə bilərik. 4 il ərzində görülən işlər qlobal miqyaslıdır belə deyə bilərik. Ağdam bu gün Azərbaycanın ən gözəl şəhərlərindən birinə çevrilmək üzrədir. Çox qısa zamanda Ağdam bütün dünyaya səs salacaq".

E.Musayev səfərin yüksək səviyyədə təşkil olunduğunu bildirib və bununla əlaqədar olaraq Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinə təşəkkür edib. "Siyasi dialoqun davamlı şəkildə təşviq edilməsi, iqtidar və müxalifət partiyalarının milli məsələlərdə ortaq mövqe nümayiş etdirməsi, Azərbaycanın dayanıqlı inkişafına, sabitliyinə və siyasi sistemin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına töhfə verir. Bu gün dialoq, təkcə hakimiyyətlə partiyalar arasında deyil, ümumilikdə ictimai-siyasi institutlar arasında qarşılıqlı etimadın və əməkdaşlığın vacib platformasına çevrilib. Hər bir partiya, fərq etmədən, Azərbaycanın gələcəyi naminə bu mühitin qorunmasına öz töhfəsini verməlidir." Çünki bu, ölkədə mövcud olan siyasi həmrəyliyin və milli birliyin təcəssümüdür. Müxtəlif partiyaların rəhbərlərinin, funksionerlərinin, fərqli ideoloji baxışlara sahib siyasi qurumların bir araya gələrək Qarabağa səfərləri, bir tərəfdən Azərbaycanın ərazi bütövlüyü uğrunda əldə olunmuş qələbəyə hörmətin ifadəsidirsə, digər tərəfdən milli mənafelərin ideoloji fərqliliklərdən üstün tutulduğunu nümayiş etdirir", - deyə partiya sədri əlavə edib.

### Elçin Mirzəbəyli: Milli birliyin qorunub saxlanması, inkişaf etdirilməsi sabahın da qalibi olacağımıza əminlik yaradır

Milli Məclisin deputatı, politoloq Elçin Mirzəbəyli də siyasi partiyaların sədr və nümayəndələrinin, habelə politoloq, siyasi şərhçi, internet televiziyalarının rəhbərlərinin və qəzet redaktorlarının iştirak etdiyi Ağdam səfərini yüksək dəyərləndirib, bu səfəri siyasi dialoq mühitinin inkişafında yeni bir mərhələ adlandırıb. Millət vəkili bildirib ki, postmüharibə dövründə Azərbaycanın daxilində milli həmrəylik və siyasi əməkdaşlıq mühüm strateji vəzifəyə çevrilir. Bu gün dünyada baş verən geosiyasi dəyişikliklər fonunda ölkədaxili siyasi münasibətlərin dialoq və ortaq maraqlar üzərində qurulması xüsusi əhəmiyyət daşıyır: "Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan siyasi dialoq prosesi artıq siyasi sistemimizin ayrılmaz hissəsinə çevrilib. Bu proses təkcə hakimiyyətlə müxalifət arasında münasibətlərin normallaşması deyil, həm də demokratik institutların möhkəmlənməsi, siyasi partiyaların cəmiyyətdəki rolunun artması ilə nəticələnir. Dialoq platformasının mövcudluğu, partiyaların bu platformada aktiv iştirakı, Azərbaycanın siyasi sistemini daha açıq, şəffaf və dayanıqlı edir. Azad olunmuş bölgələrə birgə səfərlər isə bu dialoqun təbii davamı kimi çıxış edir və ictimai birlik mesajı verir. Bu, həm də regionda sabitliyin qorunması, gələcək quruculuq və bərpa proseslərinin milli birlik ruhunda həyata keçirilməsi baxımından önəmlidir".



E.Mirzəbəyli bildirib ki, bu birliyin qorunub saxlanması, inkişaf etdirilməsi yalnız bu günün deyil, sabahın da qalibi olacağımıza əminlik yaradır. "Çünki bu səfərlər zamanı müşahidə etdiyimiz həmrəylik, eyni məqsəd ətrafında birləşmək iradəsi və vahid mövqeli çıxışlar Azərbaycan siyasi tarixində yeni, sağlam ənənənin formalaşmasına səbəb olur. Bu gün Qarabağ və Şərqi Zəngəzur yalnız coğrafi deyil, siyasi həmrəylik məkanıdır. Orada təməli qoyulan hər bir bina, salınan hər yol həm də milli birliyin rəmzidir. Siyasi dialoqun bu səviyyəyə yüksəlməsi, partiyaların bölgələrdə baş verən proseslərə birgə reaksiya verməsi, dövlətçiliyin, milli maraqların qırmızı xətt kimi qəbul edildiyini sübut edir. Bu birgə səfərlər həm siyasi mədəniyyətin, həm də ümummilli ideyanın təntənəsidir", - deyən politoloq əlavə edib ki, siyasi partiyalar - həm parlamentdə təmsil olunan, həm də parlamentdən kənar müxalifət bu prosesə aktiv şəkildə qoşularaq sübut etdilər ki, milli məsələlərdə ortaq mövqedə dayanmaq mümkündür. Dövlətçilik məsələlərində fikir birliyinin olması həm daxili sabitliyi möhkəmləndirir, həm də xarici təzyiqlərə qarşı daha davamlı mövqe formalaşdırır.

***P.İSMAYILOV***

# Azərbaycan-Vyetnam: İqtisadi əməkdaşlığın yeni perspektivləri

**İyulun 16-17-də Hanoyda İqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyasının 3-cü iclası keçiriləcək. Komissiyanın iclasının keçirilməsi barədə razılıq Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın mayın əvvəlində Azərbaycana səfəri zamanı əldə olunub. Komissiyanın Azərbaycan tərəfdən həmsədri energetika naziri Pərviz Şahbazov, Vyetnam tərəfdən isə sənaye və ticarət naziri Nquyen Honq Diendir.**

**Hökumətlərarası komissiyanın iclası çərçivəsində Vyetnam-Azərbaycan Biznes Forumu, habelə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Vyetnam Milli Sahibkarlıq Assosiasiyası arasında imzalanmış Anlaşma Memorandumuna uyğun olaraq Vyetnam-Azərbaycan Birgə Biznes Şurasının ilk iclası keçiriləcək.**

### Ənənəyə söykənən faydalı əməkdaşlıq

Azərbaycanın xarici siyasətində mühüm yer tutan Asiya ölkələri ilə sıx əməkdaşlığın nümunələrindən biri kimi Vyetnamla hərtərəfli münasibətləri qeyd etmək olar. Ölkələrimiz arasında dostluq əlaqələrinin tarixi hələ ötən əsrin ortalarına təsadüf edir, 1960-70-ci illərdə neft sənayesində başlanan səmərəli əməkdaşlıq daha da inkişaf etdirilərək bir çox sahələri əhatə edib. Azərbaycanlı mütəxəssislərin Vyetnamın neft sənayesinin qurulmasına cəlb edilməsi bu ölkənin enerji sektorunun dirçəlişinə təkan verib. Ümummilli lider Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə Azərbaycan-Vyetnam əlaqələri üçün yaradılan əsaslı təməllər neft-qaz sənayesi ilə yanaşı, digər sahələrin inkişafında da mühüm rol oynayıb. Onun 1983-cü ildə Vyetnama səfəri isə xalqlarımız arasında mehriban dostluq münasibətlərinin inkişafında böyük rol oynayıb. Elm, mədəniyyət, təhsil sahəsində faydalı əməkdaşlıq Vyetnamda yüksək ixtisaslı kadr institunun formalaşmasına, eyni zamanda iqtisadiyyatın idarə olunmasında təcrübəli mütəxəssis ordusunun yetişməsinə səbəb olub. Azərbaycanın müxtəlif ali təhsil müəssisələrində oxuyan minlərlə vyetnamlı tələbə hazırda peşəkar kadr kimi öz ölkələrinin neft sənayesinin inkişafına töhfə verirlər.

Azərbaycan-Vyetnam münasibətlərinin keçmiş dostluq ənənəsinə söykənərək son 30 ildə daha da inkişaf edərək ümidverici perspektivlər üzərində güclənib. İkitərəfli münasibətlərdə son illərdə daha da intensiv xarakter alaraq siyasi dialoq, iqtisadi əməkdaşlıq, o cümlədən energetika, müdafiə sənayesi, ticarət, mədəni-humanitar və digər sahələrdə yaxşı nəticələrin əldə edilməsi ilə yadda qalıb. Prezident İlham Əliyevin Vyetnamla əlaqələrin inkişafına verdiyi xüsusi önəm bu Asiya ölkəsi ilə qarşılıqlı etimad və etibara söykənməklə dövlətlərarası əlaqələrin inkişafında əsaslı zəmin yaradıb. Hər iki ölkənin dövlət başçılarının 2014-2015-ci illərdə baş tutmuş qarşılıqlı səfərləri Azərbaycan-Vyetnam əlaqələrində yeni səhifə açıb. Həmin illərdə keçirilmiş Birinci Azərbaycan-Vyetnam Biznes Forumu, Hökumətlərarası Komissiyanın yaradılması, parlamentlərarası əməkdaşlıq və siyasi məsləhətləşmələr münasibətlərin dərinləşməsinə səbəb olub.

Azərbaycanın enerji sənayesində qazandığı təcrübə və milli neft sənayeçilərimizin beynəlxalq miqyaslı nailiyyətləri Vyetnamın enerji sahələrinin inkişafına da töhfə verib. 2019-cu ildə SOCAR ilə "Binh Son Refinery and Petrochemical Company" arasında imzalanmış müqavilə, Azərbaycan mütəxəssislərinin Vyetnam neft sənayesinin formalaşmasındakı rolu tarixi əməkdaşlığın mühüm göstəriciləridir.

### Strateji Tərəfdaşlıq Bəyanatına əsaslanan yeni hədəflər

Cari ilin may ayında ölkəmizə səfər edən Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın respublikamıza baş tutan uğurlu səfəri çərçivəsində "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat"in qəbul edilməsi dövlətlərarası münasibətləri daha yüksək səviyyəyə qaldırmaq niyyətini ifadə edir. Səfər zamanı əldə edilmiş digər razılaşmalar münasibətlərdə yeni mərhələnin əsasını qoyub. Energetika sahəsində imzalanmış sənədlər Vyetnam şirkətlərinin Azərbaycana, Azərbaycanın neft şirkətinin (SOCAR) isə Vyetnama sərmayə qoyuluşu ilə bağlı konkret addımların atılmasını nəzərdə tutur. Eləcə də qarşılıqlı sərmayə qoyuluşu aktual müzakirə mövzu kimi diqqətdə dayanır.



İqtisadi sahəyə dair bütün sazişlərin başlıca məqsədi həm də ticari dövriyələri artırmağa xidmət edir. Ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi üçün yaxşı potensial mövcuddur və bu baza əsasında konkret ticari mübadilələri irəli aparmaq olar. 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 224 milyon dollar olsa da bu, mövcud potensialadan xeyli azdır. Ona görə də, ticari və iqtisadi əlaqələrin inkişafına böyük əhəmiyyət verir və müxtəlif stimullaşdırıcı təşviqlərin tətbiqini zəruri hesab edir. Mövcud rəqəmlər ticarət strukturunda şaxələndirmənin və qarşılıqlı investisiya imkanlarının genişləndirilməsinin mümkünlüyünə işarə edir. Bu baxımdan iki ölkə arasında yeni iqtisadi təşəbbüslərin və layihələrin reallaşdırılması perspektivləri böyükdür.

### Biznes forumlar sahibkarlar arasında birgə layihələri təşviq edir

Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyasının iclasları da bu baxımdan stimulverici rol oynamaqla, tərəflər arasında müxtəlif iqtisadi layihələrin həyata keçirilməsində əlaqələndirici funksiyanı üzərinə götürüb. Eyni zamanda, Vyetnam-Azərbaycan Biznes Forumu da sahibkarlar arasında birbaşa ünsiyyətin qurulması, birgə layihələrin müzakirəsi və icrası üçün yaxşı platforma hesab edilə bilər. Hər iki ölkənin biznes icmaları arasında əlaqələrin təşviqində və sərmayə planlarının həyata keçirilməsində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Vyetnam Milli Sahibkarlıq Assosiasiyası da faydalı institut sayılmalıdır. Hər iki qurum son illərdə konkret hədəflərə söykənərək biznes layihələrinin reallaşmasında koordinasiyaedici rol oynayır. Bir müddət əvvəl KOBİA ilə assosiasiya arasında imzalanmış Anlaşma Memorandumu hədəf prioritetlərinə çatmaqda öz dəstəyini göstərmək niyyətindədir.

Beləliklə, hökumətlərarası komissiyanın yeni iclasının keçirilməsi müəyyən edilmiş prioritetlər üzrə tədbirlərin həyata keçirilməsində yeni addım olacaq, strateji planlara doğru əlavə imkanları səfərbər edəcək. Habelə Vyetnam-Azərbaycan Birgə Biznes Şurasının iclası zamanı iki ölkənin sahibkarlıq sektorunun təmsilçiləri arasında qarşılıqlı fəaliyyət və sərmayə layihələri üzrə yeni məsləhətləşmələr iqtisadi yaxınlaşmanı daha da sürətləndirəcək. Ümumilikdə, hər iki mühüm tədbirin reallaşması Azərbaycan-Vyetnam münasibətlərinin dostluq, qarşılıqlı hörmət və strateji tərəfdaşlıq üzərində inkişafında mühüm rol oynayacaq.

***E.CƏFƏRLİ***

# Sülhə qarşı “hücum” cəhdi?

## Avropa Paşinyandan izahat istəyir

## “Köhnə qitə” prosesə müdaxilə imkanlarını araşdırır

Ermənistanın baş naziri Nikol Paşinyanın Əbu-Dabidə keçirilən görüşün ardından “Avropa turnesi”nə çıxması diqqəti cəlb edib. Siyasi kluarlarda fərqli yozumlarla izah edilən səfərlə bağlı erməni KİV-i maraqlı nüanslar paylaşıb - belə ki, “Hraparak” qəzeti mənbələrə istinadən Paşinyanın Brüsselə təcili səfərini Aİ rəhbərliyinin Əbu-Dabidə ABŞ-ın vasitəçiliyi ilə keçirilən Ermənistan-Azərbaycan danışıqlarının təfərrüatlarını öyrənmək istəyindən qaynaqlandığını yazıb. Nəşrin yazdığına görə, Paşinyan Vaşinqtonun vasitəçiliyinin, o cümlədən Zəngəzur dəhlizi üzrə əldə olunan razılaşmanın belə tez nəticə verməsinin səbəbini izah etmək üçün Brüsselə çağırılıb.

### Şirnikləndirici təklif - 2,5 milyardlıq yardım...

Qəzet iddia edir ki, səfər hətta Mülki Müqavilə partiyasının bir çox üzvləri üçün də gözlənilməz olub - yalnız bir neçə nəfər bundan xəbərdar imiş. Qəzet yazır ki, Paşinyan Avropa İttifaqı Şurasının rəhbəri Antonio Kosta, Avropa Komissiyasının sədri Ursula Fon der Leyen və Fransa prezidenti Emmanuel Makronla görüşlərdə Rusiyanı nəhayət regiondan sıxışdırıb çıxarmaq üçün proqramı tamamlamağa söz verib. Antonio Kosta və Fon der Leyenin də iştirakı ilə keçirilən üçtərəfli görüşdən sonra Aİ Ermənistana dezinformasiya və kiber təhdidlərə qarşı təşkilatın yardımlarından istifadə etməyi təklif edib - həmçinin Qlobal Gateway strategiyası çərçivəsində İrəvana dəstəyi 2,5 milyard avroya qədər genişləndirmək planlarını açıqlayıb.

Daha sonra isə Parisə səfər edən Nikol Paşinyan orada Fransa prezidenti Makronla görüşüb. Görüş Parisdə yerləşən Yelisey sarayında baş tutub. Bu barədə məlumatı Paşinyan özünün sosial şəbəkə hesabında yayımladığı görüntülərlə ictimaiyyətə təqdim edib. Tərəflərin hansı məsələləri müzakirə etdiyi barədə geniş məlumat verilməyib.



### Aİ ənənəvi ampluasında...

Qeyd edək ki, Paşinyanın səfərləri kontekstində siyasi təhlilçilərin ön plana çıxardıqları əsas sual Brüssel və Paris ziyarətlərinin sülh prosesinə hansı təsirləri göstərə bilməsidir. Burada aparıcı amillər kimi hətta Avropanın sülh prosesinə yeni manevrlər yaratması da götürülür. Diqqətə çatdıraq ki, erməni KİV-ləri də yazır ki, Aİ Şurasının keçmiş Prezidenti Şarl Mişelin vasitəçiliyi həyata keçirilən prosesin uğursuzluğu “köhnə qitə”də narahatlıq yaradıb. Yeni situasiyada ikitərəfli təmasların effektivliyi isə bu narahatlığı daha da artırır. Bu baxımdan, səfərin mahiyyətini təhlil edərkən Aİ-nin danışıqlar prosesinin detallarının müəyyənləşməsindən kənarda qalmaq istəməməsi ön plana çıxır - hətta onların yenidən İrəvanın əli ilə danışıqlara qayıtmaq istəyində olması da düşünülür. Səfər zamanı keçirilən görüşlərin detalları da deyilənləri təsdiqləyir. Qərbli siyasətçilər bildirirlər ki, rəsmi Bakı ilə İrəvan arasında baş tutan vasitəçisiz görüşlər konkret nəticələr versə də, Qərb aktorları bu formatı öz maraqları üçün zərərli hesab edir. Parisə edilən səfər isə daha böyük təhlükə yaradır - Paşinyan vasitəsilə prosesi yenidən beynəlmiləlləşdirmək və Fransa kimi açıq ermənipərəst mövqe tutan ölkəyə diplomatik mövqe qazandırmaq cəhdləri burada açıq müşahidə olunur. Bu isə problemin həllinə deyil, yenidən süni şəkildə uzadılmasına xidmət edə bilər. Vaxtilə Brüssel prosesi çərçivəsində də İrəvanı öz orbitində saxlamağa çalışan Paris min bir yolla danışıqlara mane olurdu - nəticədə isə özü prosesdən kənarlaşdırıldı. Gedişat onu göstərir ki, Avropa danışıqları təzyiq altına salmaq üçün yeni manevr planlarını işə salmağa hazırlaşır.



### Əbu-Dabi mesajları: yeni geosiyasi platforma

Bunun bir səbəbi də Əbu-Dabi görüşünün nəticələridir. Görüşün nəticələri ilə bağlı verilən açıqlamalarda təmasların davam etdirilməsi və mövqelərin yaxınlaşması ilə bağlı mesajların yer alması çox güman ki, Qərbdə açıq mənfi assosiasiya yaradıb. Çünki Əbu-Dabi prosesi regionun yeni geosiyasi platformasını müəyyənləşdirdi. Bu formatda Azərbaycanın iradəsi ilə aparılan danışıqlar real nəticələrə, konkret və müsbət mesajlara əsaslanır. Mövqelərin yaxınlaşması ilə bağlı verilən açıqlamalar, Ərəb dünyasının vasitəçiliyində əldə edilən konstruktiv dinamika bu baxımdan da Qərbi narahat etməyə bilməz - əgər əvvəllər danışıqlar Aİ-nin vasitəçiliyi ilə aparılırdısa və qurumun prosesdə manevr imanları mövcud idisə, artıq yeni dönəmdə belə deyil. Bu gün tərəflər regional və neytral güc mərkəzlərinin diplomatik səyləri nəticəsində (yalnız ev sahibi olaraq iştirak) keçirilən görüşlərdə prosesi ikitərəfli maraqlar kontekstində dəyərləndirirlər. Qərb üçün bu, həm də öz mövqelərinin zəifləməsi və maraqlarının ikinci plana keçməsi ilə müşayiət olunur. Əbu-Dabi prosesi açıq göstərdi ki, region ölkələrinin iştirakı və qarşılıqlı maraqlara əsaslanan münasibətlər Qərbin birtərəfli yanaşmasından daha uğurlu nəticə verir.

### Zəngəzur dəhlizi: Avropa prosesdən kənarda qalmağı həzm edə bilmir

Siyasi ekspertlər Qərbin narahatlığının əsas ünsürü kimi Zəngəzur dəhlizi məsələsini də önə çəkirlər. Bəli, əsas diqqət Zəngəzur dəhlizindədir - regionda gedən prosesləri diqqətdə saxlayan güc mərkəzləri Zəngəzur dəhlizi ilə bağlı prosesdən kənarda dayanmağı (qalmağı) həzm edə bilmir. Çünki postmüharibə dövründə Zəngəzur dəhlizinin təkcə regional deyil, eyni zamanda qlobal aktorların maraq dairəsinə daxil olan bir layihə kimi xarakterizə olunması sirr deyil. Azərbaycanın təşəbbüsü ilə irəli sürülən bu dəhliz layihəsi nəqliyyat, logistika, ticarət və təhlükəsizlik baxımından böyük əhəmiyyət daşıyır. Rusiya, Türkiyə, İran və Çin kimi regionda maraqları olan dövlətlər bu marşrutun açılmasını strateji perspektiv kimi dəyərləndirirlər. Lakin Qərb - xüsusilə də Fransa bu prosesdən kənarda qalmağı qəbul etmir. Onlar bu dəhlizin açılmasının Avrasiya məkanında yeni güc balansı yaradacağından ehtiyatlanır. Zəngəzur dəhlizi layihəsi həm də Ermənistanın blokadadan çıxması üçün real fürsət təqdim edir - Fransa bu məqam üzərindən də təzyiqlərini sərtləşdirir. Paris anlayır ki, Zəngəzur dəhlizi üzərində əldə olunacaq razılıq Ermənistanın birdəfəlik itirilməsi, eyni zamanda Cənubi Qafqaza “giriş biletinin” itirilməsidir. Amma Paşinyanın timsalında Ermənistana göstəriləcək təzyiq ən azından prosesi ləngitmək perçpektivi də olsa yarada bilər.

### Dəyişməz mövqe - Ermənistan sülhü imzalamasa...

Amma Azərbaycanın mövqeyi qəti və birmənalıdır - danışıqlar ikitərəfli formatda, vasitəçisiz olaraq davam etdiriləcək. Bunu, prosesin özü də təsdiqləyir. Əldə olunan əsas nəticələrə yalnız ikitərəfli format zamanı imza atılıb. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, sülh danışıqları yalnız Azərbaycan və Ermənistan arasında, üçüncü tərəfin müdaxiləsi olmadan, birbaşa təmaslar yolu ilə nəticə verə bilər. Vurğulandığı kimi, son illərdə aparılan proseslər və əldə olunan nəticələr bu yanaşmanın nə qədər səmərəli olduğunu təsdiqləyir. Moskva və Brüssel formatlarında illərlə aparılan görüşlər nəticəsiz qalarkən, yalnız iki ölkənin liderlərinin bilavasitə təması zamanı mühüm irəliləyişlər əldə olunub. Azərbaycanın bu qəti mövqeyi sülhün real əsaslara söykənməsini və dayanıqlı olmasını təmin edir. Vasitəçilərin mövcudluğu çox zaman maraq toqquşmalarına və manipulyasiyalara şərait yaradır ki, bu da prosesin uzanmasına səbəb olur.

Ermənistan isə “papağını qabağına qoyub” bir daha düşünməlidir - İrəvan sülhü imzalamasa, Qərb onun köməyinə çatmayacaq və ya çata bilməyəcək. Ermənistanın indiki siyasi hakimiyyəti real geosiyasi vəziyyəti dərk etmədikcə və qeyri-real xülyalara arxalanmağa davam etdikcə ölkəni yeni təcrid və dalan gözləyir. Azərbaycan artıq regional güc mərkəzi kimi çıxış edir və onun diktə etdiyi sülh şərtləri beynəlxalq hüquqa və suverenlik prinsipinə əsaslanır. İrəvan bu şərtləri qəbul etmədiyi təqdirdə nə Aİ, nə də ABŞ ona real yardım göstərə bilməyəcək. Paşinyan hökumətinin Qərbə ümid bəsləməsi və oradan hərbi və ya siyasi dəstək gözləməsi tamamilə utopik yanaşmadır. Hətta bu amil, yəni sülhdən yayınma Paşinyanın gələcək siyasi perspektivini də qaranlığa sürükləyir - gələn il baş tutacaq seçkiləri qazanmaq ehtimalı yox dərəcəsinə çatır.

Qərb, xüsusilə Fransa Ermənistanı yalnız geosiyasi oyunların aləti kimi istifadə edir. Azərbaycanın təklif etdiyi sülh isə regionda sabitlik və rifahın bərqərar olmasının yeganə yoludur.

**P.İSMAYILOV**

---

Özünü demokratiyanın beşiyi kimi təqdim etməyə çalışan Fransanın əlində, tarixən müxtəlif xalqlara qarşı müstəmləkəçilik siyasəti həyata keçirdiyi bütün dünyaya məlumdur. Bu müstəmləkəçilik siyasətindən müxtəlif xalqlar hələ də əziyyət çəkir. Fransa bir sıra xalqları hələ də öz müstəmləkəsi altında saxlayır. Təəssüf ki, beynəlxalq ictimaiyyət rəsmi Parisin bu siyasətinə qarşı adekvat reaksiya vermir.

# Tarixi razılaşma...

## Fransa daxilində xüsusi statusa malik Yeni Kaledoniya Dövləti yaradılır

### Azərbaycan müstəmləkədən əziyyət çəkən xalqları dəstəkləyir

Lakin Azərbaycan bu məsələdə prinsipial mövqe nümayiş etdirir və Fransanın müxtəlif xalqlara qarşı repressiv siyasətinə etiraz səsini ucaldır. Eyni zamanda, müstəmləkəçiliyə qarşı aparılan mübarizəyə siyasi və mənəvi dəstək verilir. Bakı Təşəbbüs Qrupunun yaradılması da bu məqsədə xidmət edir. Belə ki, Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının 2023-cü il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində bu tədbirin nəticəsi olaraq yaradılıb.

Hazırda Fransa Afrikada, Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı bəzi ərazilərdə müstəmləkəçilik siyasətini davam etdirir. Bakı Təşəbbüs Qrupu isə Fransanın bu siyasətinə qarşı müxtəlif yerli və beynəlxalq səviyyəli tədbirlər keçirir. Həmin tədbirlərdə fransız müstəmləkəsindən əziyyət çəkən xalqların nümayəndələri də fəal iştirak edirlər. Artıq Azərbaycanın həmin xalqlara siyasi və mənəvi dəstək göstərməsi öz nəticəsini verməkdədir. Belə ki, on günlük danışıqlardan sonra Yeni Kaledoniyanın müstəqillik tərəfdarları və əleyhdarları arasında Fransa tərəfindən tarixi hadisə kimi qiymətləndirilən razılaşma imzalanıb. 13 səhifəlik sənəddən ibarət razılaşmada Fransa daxilində xüsusi statusa malik Yeni Kaledoniya Dövlətinin yaradılması nəzərdə tutulur. Bu status kaledoniyalılara ikili vətəndaşlıq - Fransa və Yeni Kaledoniya vətəndaşı olmaq imkanı verir və onların kimliyini tanımaqla yanaşı, Fransa ilə əlaqəni də saxlayır. Sənədə görə, digər ölkələr də Yeni Kaledoniya Dövlətini tanıya biləcək.



Razılaşma yalnız institusional məsələlərlə məhdudlaşmır. O, eyni zamanda iqtisadi və maliyyə islahatları paktını da əhatə edir. Bu pakt Yeni Kaledoniya iqtisadiyyatının əsas sütunlarından biri olan nikel sənayesi üçün strateji planı da özündə ehtiva edir.

### Referendumda təsdiq olunmalıdır

Razılaşmanın qüvvəyə minməsi üçün 2026-cı ilin fevralında Yeni Kaledoniyada keçiriləcək referendumda təsdiq olunması nəzərdə tutulur. Gələn ilin əvvəlində Yeni Kaledoniyanın təşkilatlanmasına həsr ediləcək fundamental qanun da qəbul edilməlidir. Həmin qanuna əsasən ölkənin kimlik simvolları (ölkənin adı, bayrağı, himni, devizi və s.) dəyişdiriləbilər. Fundamental qanun Yeni Kaledoniya Konqresinin 3/5 üzvünün səsi ilə qəbul edilməlidir.

Digər məqam ondan ibarətdir ki, Fransanın beynəlxalq öhdəliklərinə və fundamental maraqlarına riayət etməklə Yeni Kaledoniya Dövləti tərəfindən diplomatik fəaliyyət aparılacaq. Eyni zamanda, Fransa dövləti öz diplomatik münasibətlərində Yeni Kaledoniyanın maraqlarını (xüsusən də xarici ticarət məsələlərində) nəzərə almağı, habelə Yeni Kaledoniyanın beynəlxalq təşkilatlarda daha geniş təmsil olunması və onun beynəlxalq inteqrasiyasını dəstəkləməyi üzərinə öhdəlik kimi götürür. Lakin Yeni Kaledoniya Dövlətinin BMT-də yerə malik olması ilə bağlı müddəa layihədə mövcud deyil.

Bundan başqa, Fransa regiondakı strategiyaları, məqsədləri və fəaliyyətləri barədə Kaledoniya rəsmilərini məlumatlandırmalıdır. Fransanın Yeni Kaledoniyadakı Silahlı Qüvvələri Yeni Kaledoniyanın ərazi bütövlüyünə və onun əhalisinin qorunmasına zəmanət verəcək. Könüllü hərbi xidmət bölümü də təsis ediləcək. Həmçinin, Fransa dövlətini, Kaledoniya hökumətini, merləri və adət-ənənə rəsmilərini bir araya gətirəcək Təhlükəsizlik üzrə Ali Kaledoniya Şurası təsis ediləcək. Fransa dövlətinin kompetensiyasına riayət etməklə bölgələr özlərinin bölgə polislərini (ictimai sakitçilik, sanitariya, insanların və malların təhlükəsizliyi, ətraf mühitin qorunması məsələləri) yarada biləcəklər. Fransa dövlətinin kompetensiyasına riayət etməklə Yeni Kaledoniyanın adət-ənənə bölgələrində adət-ənənə (adət-ənənələrə hörmət edilməsinə nəzarət) polisləri təsis ediləcək.

Yeni Kaledoniya Konqresi tərəfindən belə bir qərar qəbul edilərsə, Fransa və Yeni Kaledoniya Konqresinin xüsusi nümayəndə heyəti arasında işçi qrupu yaradılacaq və bu ötürmənin şərtləri müzakirə olunacaq. Nəticədə tərtib ediləcək müştərək layihə kaledoniyalılar tərəfindən təsdiq edilməlidir. Sözügedən səsvermədə bütün kaledoniyalılar iştirak edə biləcək.

### Digər xalqlar üçün də presedent ola bilər

2026-cı ildən isə kaledoniyalılar ikili vətəndaşlığa malik olacaqlar - Fransa və Kaledoniya. Onlar Avropa vətəndaşlığını da qoruyub-saxlayacaqlar. Bundan əlavə, bütün Yeni Kaledoniya vətəndaşlarının və Kanakidə davamlı əsasda ən azı 15 il yaşayan şəxslər regional seçkilərdə iştirak edə biləcək. Bu dəyişiklik ən əsas məqamlardan biridir. Belə ki, Fransa dövlətinin məhz bu dəyişiklik istəyi 2024-cü ildə baş vermiş iğtişaşların əsas səbəblərindən biri olmuşdu. Xatırladaq ki, regional seçkilər Yeni Kaledoniya üçün xüsusi əhəmiyyətə malik olan seçkilərdir. Belə ki, regional seçkilər vasitəsilə Yeni Kaledoniya Konqresinin (Parlament) üzvləri seçilir. Beləliklə, dəyişiklik nəticəsində ən azı 12 min yeni insan regional seçkilərdə səs verə biləcək.

Razılaşmaların icrasını isə yaradılacaq Nəzarət Komitəsi izləyəcək. Bu komitədə Fransa və Yeni Kaledoniya nümayəndələri təmsil olunacaq.

Qeyd edək ki, razılaşmaya əsasən Yeni Kaledoniya öz müqəddaratını təyin etmək hüququnu da özündə saxlayır. Bu hadisənin müsbət məqamlarından biri Fransa prezidenti E.Makronun ilk dəfə Yeni Kaledoniya ilə bağlı danışıqlarda şəxsən iştirak etməsi oldu. Nəzərə alaq ki, Yeni Kaledoniya məsələsinin beynəlmiləlləşdirilməsi bu məsələdə ciddi rol oynayıb ki, Azərbaycanın burada rolu və töhfəsi hər kəs tərəfindən qəbul edilir. Bundan əlavə, Yeni Kaledoniyanın yeni “unikal statusu” digər ərazilər (məsələn, uzun müddətdir ki, öz statusunu dəyişməyə cəhd edən Korsika) üçün presedent ola bilər.

**N.BAYRAMLI**

# “Gürcü arzusu”ndan Avropaya məktub...

## Aİ-nin “demokratiya dərsi”nə ehtiyac yoxdur

Qonşu Gürcüstanla Avropa təsisatları arasında ixtilaflar getdikcə daha da kəskinləşir. Son vaxtlarda Avropa İttifaqının (Aİ) bir sıra rəsmiləri, eləcə də Avropa Şurasının Parlament Assambleyası (AŞPA) Gürcüstanda baş tutan parlament və prezident seçkilərini hədəfə alan silsilə bəyanatlar verərək rəsmi Tbilisini insan və vətəndaş haqlarını pozmaqda, demokratiyadan uzaqlaşmaqda ittiham ediblər. Gürcüstan iqtidarı isə bəhs olunan bəyanatları suveren dövlətin daxili işlərinə əsassız müdaxilə cəhdləri kimi dəyərləndirərək rədd edir.

## Hakim partiyadan növbəti etiraz

Bugünlərdə Gürcüstanın hakim “Gürcü Arzusu - Demokratik Gürcüstan” Partiyası Avropa İttifaqının və Avropanın 17 ölkəsinin nümayəndələrinin növbəti tənqidi bəyanatına kəskin məzmunlu açıqlama ilə cavab verib. Partiyanın Siyasi Şurasının bəyanatında bildirilir ki, Avropada demokratik prinsiplərin və əsas dəyərlərin sürətlə aşındığı dövrdə “dərin dövlət” anlayışı getdikcə daha çox təsir gücünə malik olur. “Avropa İttifaqına üzv ölkələrin əksəriyyəti və Böyük Britaniya qeyri-rəsmi idarəçilik altında fəaliyyət göstərir. Bu idarə altında artıq Avropa bürokratiyasında heç bir mənəvi sərhəd yoxdur”, - deyə bəyanatda vurğulanır.

Partiya hesab edir ki, Gürcüstana qarşı son tənqidlər, xüsusən yerli seçkilər ərəfəsində radikal müxalifət təmsilçilərinin həbsinə dair iddialar qərəzlidir. Partiya bildirir ki, həbslər qanuna uyğun həyata keçirilib və hüquqi baxımdan Avropa standartlarına tam uyğundur. “Gürcü xalqı “dərin dövlətin” agenturasının hakimiyyətə qayıtmasına imkan vermədi. Bunu qəbul edə bilməyən xarici dairələr Gürcüstana qarşı təzyiqləri artırıblar”, - deyə bəyanatda qeyd olunub.

Sənəddə vurğulanır ki, son etiraz aksiyalarında zorakılığa yol verilib və bu aksiyalara xaricdən - o cümlədən ABŞ və Aİ fondlarından maliyyə dəstəyi göstərilib.

Partiya həmçinin Avropanın bəzi ölkələrində siyasi təqib hallarının baş verdiyini, seçki nəticələrinin ləğv olunduğunu və namizədlərə qarşı cinayət işlərinin açıldığını qeyd edərək, bu cür hallarda Avropanın Gürcüstana “demokratiya dərsi” keçməsinin qəbulolunmaz olduğunu bildirib.

Partiya Avropa İttifaqı ilə ədalətli əməkdaşlığa açıq olduğunu, lakin Gürcüstanın suverenliyinin və xalqın iradəsinin heç bir xarici təzyiqlə dəyişdirilməyəcəyini bəyan edib: “Biz hər kəslə ədalətli əməkdaşlığa hazırıq. Lakin Gürcüstana Avropa nə qədər lazımdırsa, Avropa İttifaqına da Gürcüstan o qədər lazımdır”, - deyə bəyanatda vurğulanıb.



## Bəs Gürcüstanda reallıqda nə baş verir?

Grücüstanla Avropa təsisatları arasında münasibətlər o dərəcədə kəskinləşib ki, hətta qonşu ölkə Aİ-nin üzvlüyünə namizədliklə bağlı danışıqları 2028-ci ilədək dayandırıb. Eyni zamanda, Avropa İttifaqı Gürcüstana əvvəllər vəd etdiyi bir sıra maliyyə yardımı proqramlarını qeyri-müəyyən müddətə dayandırıb, həmçinin Gürcüstanın AŞPA-dakı nümayəndə heyətinin mandatının təsdiqlənməsi üçün şərtlər irəli sürülüb. Bəs sonu görünməyən ixtilafların kökündə hansı amillər dayanır? Reallıqda Gürcüstanda nə baş verir?

Məsələnin mahiyyəti ondan ibarətdir ki, Cənubi Qafqazda Rusiyanın mövqeyini zəiflətməyə və öz mövcudluğunu təmin etməyə çalışan Qərb bir vaxtlar vəd etdiyi Gürcüstanın Aİ-yə üzvlüyünü rəsmi Tbilisiyə qarşı bir şantaj vasitəsinə çevirib. Ayrılan qrantların, genişhəcmli maliyyə dəstəyinin, Avropaya vizasız gediş-gəlişin müqabilində Gürcüstandan milli iradədən imtina etmək tələb olunur. Rəsmi Tbilisi siyasətini suverenlik prinsipi əsasında deyil, Brüsseldən gələn tezislər əsasında qurmalıdır. Açıq etiraf edək ki, Avropa təsisatları Gürcüstanda indiyədək yol verilən diqqətsizlikdən, boşluqlardan istifadə etməklə öz məqsədlərinə doğru müəyyən qədər irəliləməyə nail olublar. Belə ki, hazırda cəmiyyətin böyük bir kəsiminin alınan qrantlara görə Qərbin alətinə çevrildiyi Gürcüstanın çox kədərli reallıqlarından biridir.

Məhz kənar güclərin müdaxilələrini azaltmaq məqsədilə ötən il qonşu ölkənin parlamentində hakim partiyanın təqdimatı əsasında “Xarici təsirin şəffaflığı haqqında” Qanun qəbul olundu. “Xarici təsirlərin şəffaflığı haqqında” qanuna əsasən, illik gəlirinin 20 faizdən çoxunu xarici dövlətlərdən, beynəlxalq təşkilatlardan, Gürcüstan vətəndaşı olmayan qurum və şəxslərdən əldə edən və dövlət tərəfindən təsis edilməyən media orqanları və QHT-lər Gürcüstandakı “xarici gücün maraqlarını güdən təşkilat” kimi reyestrdən keçməlidirlər. Qanuna verilən izahata görə, xarici dövlətlərin maraqlarını güdən təşkilat anlayışını təqdim etmək və müvafiq olaraq bu qurumların qeydiyyatını həyata keçirmək lazımdır. Həmçinin qeyd edilir ki, qanunvericilik aktı yalnız məlumat məqsədinə xidmət edir və xarici maraqların dirijoru kimi tanınacaq təşkilatların fəaliyyətini məhdudlaşdırmayacaq. Təbii ki, müvafiq qaydada qeydiyyatdan keçməyən QHT-lərə qarşı cəza mexanizmləri, o cümlədən də maliyyə sanksiyaların tətbiqi nəzərdə tutulur.

Bəhs olunan qanun rəsmi Tbilisi ilə Avropa təsisatları arasında körpüləri yandırdı, desək, əsl həqiqəti ifadə etmiş olarıq. Qərb dairələri belə bir qanunun qəbul edilməsini Gürcüstanın yenidən Rusiyaya oriyentasiya götürməsi anlamında dəyərləndirərək rəsmi Tbilisiyə qarşı genişmiqyaslı hücumlara başlayıblar. Gürcüstan rəsmiləri isə ittihamları qəbul etməyərək qanunun sırf milli maraqlar naminə qəbul olunduğunu əsaslandırırlar. Bu məqamda onu da vurğulamaq yerinə düşər ki, oxşar məzmunlu qanun bir sıra Qərb ölkələrində, o cümlədən də Fransada qəbul olunub. Ancaq indiyədək Yelisey Sarayına bununla bağlı hər hansı bir irad tutulmayıb. Sual yaranır: Niyə eyni məqsəd güdən qanunun qəbul edilməsinə görə bir ölkəyə irad tutulur, digərinə isə gözün üstündə qaşın var deyən tapılmır? Budurmu Avropanın demokratiyası?

Gürcüstan parlamentinin ötən il qəbul etdiyi ailə dəyərlərinin qorunması ilə bağlı qanun Avropa təsisatlarının rəsmi Tbilisiyə münasibətdə səbr kasasını daşdıran son damla oldu. Brüssel bu qanunu qəbul etməklə Gürcüstanın demokratiyadan uzaqlaşdığını iddia edir. Halbuki qanunda milli dəyərlərin, gürcü xalqının ənənələrinin və ölkədə ailə institutunun qorunmasını özündə ehtiva edən mühüm müddəalar yer alıb. Gürcüstan nə etməlidir, öz dəyərlərini saxta Avropa demokratiyasına qurbanmı verməlidir?

## Qərb dayanmır

Qərb rəsmi Tbilisinin “müstəqillik”, “suverenlik” kimi əsaslandırmalarına məhəl qoymur və dayanmayaraq qonşu ölkəyə münasibətdə təzyiq cəhdlərini davam etdirir. Artıq Aİ Gürcüstanla vizasız rejimin dayandırılması imkanını nəzərdən keçirir.

Bu məsələ Avropa İttifaqına üzv ölkələrin xarici işlər nazirlərinin görüşündə müzakirəyə çıxarılıb. Səbəb kimi isə hakim “Gürcü Arzusu - Demokratik Gürcüstan” Partiyasının “dinc etiraz aksiyalarını boğması” göstərilir. Bu barədə “Politico” nəşri diplomatik mənbələrə istinadən məlumat yayıb. Mənbələrin bildirdiyinə görə, vizasız rejimin dayandırılması Gürcüstan hökumətinə təzyiq vasitələrindən biridir. Lakin Aİ bir neçə ay ərzində sərt addımlardan çəkinib. Bu, təşkilat daxilində Tbilisi ilə dialoqu dəstəkləyən bəzi üzv dövlətlərin müqaviməti ilə əlaqədar olub.

Qeyd edək ki, Gürcüstanda kütləvi etiraz aksiyaları 2024-cü il noyabrın 28-də başlayıb. Ən gərgin dövr ilk həftə olub. Paytaxt Tbilisidə bəzi etirazçılar polisə qarşı pirotexniki vasitələr işlədiblər. Hüquq-mühafizə orqanları isə cavab olaraq su şırnaqlarından və gözyaşardıcı qazdan istifadə ediblər.

Etirazlara səbəb baş nazir İrakli Kobaxidzenin verdiyi bəyanat olub. O, hakim “Gürcü Arzusu” partiyasının 2028-ci ilin sonuna qədər Aİ-yə üzvlüklə bağlı danışıqlardan və Avropa İttifaqının bütün qrantlarından imtina edəcəyini açıqlayıb. Kobaxidze Brüsseli “şantajda” ittiham edib.

*MÜBARİZ*

# 50 gün möhlət...

### ABŞ Prezidentinin şərtləri yerinə yetirilməsə, Rusiyanı ciddi problemlər gözləyir

**ABŞ-ın Rusiya-Ukrayna müharibəsinin dayandırılmasına yönəlik təşəbbüslərinin heç bir nəticəsi yoxdur. Halbuki Donald Tramp hələ seçki kampaniyası zamanı prezident seçiləcəyi təqdirdə müharibəni “24 saat ərzində dayandıracağını” vəd etmişdi. Dövlət başçısı seçildikdən sonra, münaqişənin nizamlanması üçün Vaşinqton tərəfindən bir sıra görüş və tədbirlər təşkil edilsə də, prosesdə nəticə yoxdur. Bu səbəbdən də, Tramp bir neçə gün öncə “Ukrayna münaqişəsinin nizamlanması gözlədiyimdən daha çətindir” deyə bəyan edib.**

## Tramp: Çox sərt tariflər tətbiq edəcəyik



Əslində, son vaxtlar Tramp münaqişə ilə əlaqədar Rusiyadan narazılığını ifadə edir. Bu isə o deməkdir ki, ABŞ Prezidentinin sülh təşəbbüslərinin reallaşmasına başlıca maneə Moskvanın mövqeyidir. Bütün bunların fonunda Donald Tramp iyulun 14-də Rusiya ilə bağlı ciddi bəyanatla çıxış edəcəyini demişdi. Və o, iyulun 14-də NATO-nun Baş katibi Mark Rutte ilə Oval kabinetdə keçirilən görüşdə Ukrayna ilə müharibənin 50 gün ərzində dayandırılmasına dair razılıq əldə olunmasa, Rusiyanı tariflərlə cəzalandıracağını deyib. “50 gün ərzində razılaşmamız olmasa, çox sərt tariflər tətbiq edəcəyik”, - deyən ABŞ Prezidenti bunların ikinci dərəcəli tariflər olacağını, yəni Moskvanı qlobal iqtisadiyyatda təcrid etmək üçün Rusiyanın ticarət tərəfdaşlarını hədəf alacağını söyləyib.

## NATO və Aİ Trampın bəyanatını alqışlayıb

Trampın bu bəyanatı isə NATO və Avropa rəsmiləri tərəfindən məmnunluqla qarşılanıb. NATO-nun Baş katibi Mark Rutte ABŞ Prezidenti Trampın Ukraynadakı vəziyyətlə bağlı Rusiya əleyhinə yeni tədbirlər barədə bəyanatını mühüm addım kimi qiymətləndirib. Mark Rutte bunu “Fox News” telekanalına müsahibəsində deyib. Onun sözlərinə görə, Trampın bəyan etdiyi sanksiya tədbirləri, xüsusilə də Rusiyadan enerji resursları alan ölkələrə qarşı tətbiq ediləcək rüsumlar beynəlxalq ictimaiyyət üçün ciddi xəbərdarlıqdır.

O, Trampın Ukraynaya silah satışına dair qərarını da alqışlayıb. O qeyd edib ki, bu addım Birləşmiş Ştatlarla Avropa arasında həmrəyliyin göstəricisi olmaqla, tərəflərin “Ukrayna üçün əllərindən gələni etməyə hazır olduqlarını” nümayiş etdirir: “Bu, Prezident Donald Trampın məsələyə ciddi yanaşdığını göstərən aydın bir siqnaldır. O, sülh istəyir və Ukraynada insanların həyatını itirməsindən narahatdır”.

Trampın bəyanatı ilə bağlı Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas isə bu sözləri deyib: “Trampın Rusiyaya qarşı sərt mövqe tutması müsbət haldır. Digər tərəfdən, 50 gün çox uzun vaxtdır”.

Almaniya Kansleri Fridrix Merts də “X” platformasında etdiyi paylaşımda ABŞ Prezidentinə bu təşəbbüsə görə təşəkkürünü bildirib: “Prezident Tramp bu gün mühüm təşəbbüs irəli sürüb. Əgər Avropa tərəfdaşları maliyyələşdirsə, ABŞ Ukraynaya geniş miqyasda silahlar verəcək”. Almaniyanın vitse-kansleri Lars Klinqbayl isə “ABŞ administrasiyasının Rusiyaya təzyiqi artırması və eyni zamanda, Ukraynanın hava hücumundan müdafiəsini dəstəkləməsini yaxşı hal olduğunu qeyd edib. O, real danışıqlar və sülh üçün Moskvaya təzyiqin artırılmasının vacibliyini vurğulayıb.

## Rusiya danışıqların üçüncü raundunu keçirməyə hazırdır?

Bütün bunların fonunda Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Rusiya Ukrayna ilə danışıqların üçüncü raundunu keçirməyə hazır olduğunu bildirir və tarixlərin təyin olunmasını gözləyir. O qeyd edib: “Biz hələ də tarixlərlə bağlı təklifləri gözləyirik. Rusiya tərəfi danışıqlara davam etməyə və üçüncü raund keçirməyə hazırdır. Vəziyyətin necə inkişaf etdiyi barədə bunu demək olar”.

Birləşmiş Ştatlar emissarının Kiyevə səfərini şərh edən D.Peskov vurğulayıb ki, Kit Kelloqun ABŞ Prezidenti Donald Trampın komandasının nümayəndəsi kimi Ukrayna nizamlanması üçün vasitəçilik səylərini davam etdirməsi Moskva üçün mühümdür.

Qeyd edək ki, Trampın bu bəyanatı ABŞ cəmiyyətində heç də birmənalı qarşılanmır. Məsələn, “Washington Post” yazır ki, Trampın Rusiya-Ukrayna münaqişəsinin həll edilməsi üçün Putinə verdiyi 50 gün möhlət Rusiya prezidentinə strateji üstünlük verir: mövqelərini möhkəmləndirmək, Avropaya təzyiq göstərmək, Çin və Şimali Koreya ilə hərbi yaxınlaşma üçün. Nəşr qeyd edir ki, ABŞ Prezidenti “Ukrayna ilə bağlı siyasətinin yeni parametrlərini təqdim edib”, lakin müşahidəçilər vurğulayır ki, strategiyanın əsasında ənənəvi yubatma taktikası qalır: “Səs-küylü bəyanatlar, onların ardınca isə adətən qətiyyətli addımlar atılmır. Bu taktika Putinə strateji üstünlük verir. Bu, dönüş nöqtəsidir, yoxsa növbəti yubatma, hələ də sual altında qalır”.

Göründüyü kimi, Trampın 50 günlük möhlətinin Rusiyaya necə təsir edib-etməyəcəyi ilə bağlı yanaşmalar fərqlidir. Hər halda, ciddi sanksiyalara məruz qalan Rusiyanın növbəti iqtisadi təzyiqlərə reaksiyasını zaman göstərəcək.

*N.BAYRAMLI*

# Ukrayna sürətlə silahlanır

**ABŞ Avropa və Ukraynanın təhlükəsizliyi ilə bağlı siyasətini dəyişmək qərarına gəlib. Belə ki, yaxın zamanda Vaşinqton Avropadakı müttəfiqlərinə yeni müasir silahlar tədarük edəcək. Bu silahların ilk partiyası təxminən 10 milyard dollar dəyərində qiymətləndirilir. ABŞ-ın "Axios" agentliyinin məlumatına görə, Vaşinqtonun Avropa ölkələrinə tədarük edəcəyi silahlar birbaşa Ukraynaya ötürüləcək. Agentlik, həmçinin iddia edir ki, ola bilsin Avropa ölkələri ABŞ-ın tədarük etdiyi silahları özündə saxlayacaq, Ukraynaya isə öz arsenallarından köhnə silahlar verəcəklər. Qeyd edək ki, bir neçə gün öncə ABŞ Prezidenti Donald Tramp "NBC News" telekanalına müsahibəsində bildirib ki, NATO-nun iyunun 24-26 - da Haaqada keçirilən sammitində ABŞ ilə alyansdakı müttəfiqlər arasında Ukraynaya ABŞ silahlarının ötürülməsi ilə bağlı razılıq əldə olunub - o, qeyd edib ki, bu silahların pulu müttəfiqlər tərəfindən ödəniləcək. Qərb KİV-ləri qeyd edirlər ki, rəsmi Kiyevə tədarük olunacaq ABŞ silahları Ukrayna ordusunun müdafiə qabiliyyətini gücləndirmək və rus ordusunun hücumlarının qarşısını almaq üçün nəzərdə tutulub. Tramp administrasiyasının Ukraynanı silahlandırmaq üçün planlaşdırdığı 300 milyon dollar dəyərində silah paketinə uzaqmənzilli ballistik raketlər, hava hücumundan müdafiə sistemləri, artilleriya mərmiləri və digər silah təchizatları daxildir.**



## Trampın hədəfi nədir?

Məsələ ilə bağlı politoloq Asif Nərimanlı "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Trampın Avropa və Ukraynanın müdafiəsi ilə bağlı qərarları iqtisadi-siyasi hədəflərə söykənib. "Üç-dörd ay bundan öncə ABŞ-Avropa münasibətlərində gərgin vəziyyət hökm sürürdü. Tramp Ağ Evə qayıtdıqdan dərhal sonra çıxışlarında açıq şəkildə bəyan edirdi ki, ABŞ bundan sonra Avropadakı müttəfiqlərinin müdafiəsinə maliyyə ayırmayacaq və Avropa ölkələrindən müdafiə xərclərinin artırılmasını tələb edirdi. Sözsüz ki, Trampın hər bir çıxışının arxasında müəyyən məqsədlər dayanır. Tramp istəyir ki, NATO-dakı müttəfiqlər ABŞ-dan silah-sursat tədarükünü artırsınlar. Trampın hazırkı addımlarına gəlincə, hesab edirəm ki, Ağ Evin rəhbərinin burada iki əsas hədəfi var. Birincisi, ABŞ-ın Avropanın silah bazarında mövqeyini gücləndirmək və Amerika hərbi sənayesinin gəlirlərini artırmaqdır. İkincisi, Rusiya üzərində təzyiqləri artırmaqdır. Düzdür, ABŞ-ın hazırkı administrasiyası Rusiya-Ukrayna müharibəsinin davam etməsinin tərəfdarı deyil və Ağ Ev münaqişənin həlli üçün yeni danışıqlar prosesinə təkan verdi. Lakin Tramp ilə Putin arasında baş tutan son telefon danışıqlarında ciddi bir nəticənin əldə olunmaması, xüsusilə Kremlin Vaşinqtonun çağırışlarına məhəl qoymaması və Ukraynada müharibəni davam etdirməkdə maraqlı olması Trampı Rusiyaya qarşı sərt addımlar atmağa vadar edir. Trampın Ukraynanı silahlandırmaqda əsas məqsədi Ukrayna ordusunun Rusiya qarşısında direniş göstərməsini təmin etmək deyil, cəbhədə rus ordusunu daha çox ağır itkilərə məruz qoymaqla Moskvanı danışıqlar masasına gətirməkdir. Tramp Rusiyaya 50 gün möhlət verib. Növbəti aylarda Rusiya-Ukrayna müharibəsinin gedişatına təsir göstərəcək proseslərin baş verməsinin şahidi ola bilərik".

## Silahların ötürülməsinə Pentaqon nəzarət edəcək

"Ukraynaya ABŞ silahlarının ötürülməsi prosesinə Pentaqonun özü nəzarət edəcək. Düzdür, Pentaqon de-yure deyil, de-fakto səviyyəsində bu nəzarəti həyata keçirəcək. Çünki Vaşinqton bu müharibədə tərəf olmaq istəmir. Ona görə ki, Ukraynanın silahlandırılmasında açıq şəkildə iştirak etmək ABŞ-ın münaqişənin nizamlanması prosesində vasitəçilik missiyasına ciddi zərbə vura bilər. Ağ Ev Ukraynanı Avropa ölkələri vasitəsilə müdafiə və hücum xarakterli silahlarla təmin edəcək," - A.Nərimanlı vurğulayıb.

## Cəbhədə döyüşlər şiddətlənəcək

A.Nərimanlı əlavə edib ki, Rusiya və Ukrayna hücum əməliyyatlarını genişləndirəcək. "Böyük ehtimalla, Rusiya Ukraynada yeni ərazilər ələ keçirmək və danışıqlar masasında öz mövqeyini gücləndirmək üçün intensiv döyüş əməliyyatlarına baş vuracaq. Ukrayna isə qarşıdakı döyüşlərdə yeni silahlarla öz mövqelərini qorumaq və qarşı tərəf üzərində üstünlüklər qazanmağa çalışacaq".

*Yunis ABDULLAYEV*

# Qəbulə xanım və I Pyotr

**əvvəli ötən saylarımızda**

**Qəbulənin I Pyotra məktubu: "Salyan mahalı 122 ildir ki, mənim əcdadlarım tərəfindən idarə olunur"**

Digər mühüm bir amil. I Pyotr salyanlı Qəbulə xanımdan ehtiyatlanmağı tövsiyə edəndə, qanlı hadisə hələ baş verməmişdi. Bəs Rusiya imperatoru Qəbulə ilə bağlı informasiyanı kimdən öyrənə bilərdi? Səfəvinin son, Rusiya imperatorluğunun ilk illərində, Xəzəryanı bölgələrimizdə, o cümlədən, Salyanda rus kəşfiyyatının mövcudluğu absurddur. Amma Salyan hakiməsinin siyasi oriyentasiyasının Rusiya tərəfindən nəzarətə götürüldüyünü təkzib etmək qətiyyən mümkün deyil... Rusiya Xarici Siyasət Arxivində Bakı komendantı Baryatinskiyə keçmiş Salyan xanının arvadı tərəfindən yazılmış məktublar var. Xanın arvadı onun ailəsinin razılığı olmadan Salyana rus hərbi birləşməsinin yerləşdirilməsinə etiraz edir və bu işdən narazı qaldığını Baryatinskinin diqqətinə çatdırır. Salyan xanının arvadı I Pyotra da məktub yazıb. Bildirib ki, Salyan mahalı 122 ildir ki, onun əcdadları tərəfindən idarə olunur. İndi isə rusların onun dədə-baba torpaqlarında əsgər yerləşdirməsindən rəncidədir. Burda mühüm olan başqa məsələdir. Deməli, Qəbulənin nəsli XVII əsrin ilk illərindən etibarən Salyana rəhbərlik edib. Digər mühüm məqam. I Pyotr Xəzərətrafı bölgələrimizdə Stepan Razinin fəaliyyətindən xəbərdar idi. Bunu Puşkinin əsərindən bilirik. "Pyotrun göstərişini alan Şipov soruşdu ki, iki batalyon kifayətdirmi? Pyotr cavab verdi: "500 kazakla Stenka Razin onlardan qorxmurdu".

Hər iki hadisə Romanovların dövründə baş verib. Biri Pyotrun atası Aleksey Mixayloviç Romanovun hakimiyyəti illərində, digəri də Pyotrun öz dövründə. Və hər iki dövrdə Salyan xanının ailəsini Qəbulənin nəsli təmsil edirdi.

**Qeyd**: Qəbulə xanımın törətdiyi hadisədən sonra rus ordusunun general-mayoru Şipovun təşkilatçılığı ilə Kürün mənsəbinə yaxın bir ərazidə, çayın cənub sahilində (ya Oryad qəsəbəsində, ya da indiki Neftçala şəhərinin ərazisində) hərbi retranşement - istehkam inşa edilir. 1724-cü ilin ikinci yarısında Pyotrla Salyanın işğalı ilə bağlı söhbət edən general-mayor Şipov 1727-ci ilin 12 sentyabrında Salyanda - həmin istehkamın qurulduğu ərazidə dünyasını dəyişib.

**Salyan polku... Salyan kazarmaları**

Bakıdakı Salyan kazarmalarının tarixi dərindən tədqiq olunmayıb. Salyandakı hadisədən az sonra I Pyotr öldü. Osmanlının Rusiyaya təzyiqləri gücləndikcə, ruslar əldə etdikləri torpaqları sahibinə qaytarmaqdaydı. Aleksandr Samsonovun bildirdiyinə görə, Salyan qarnizonu Bakıya çəkildi. Rus postları Kür sahillərini tərk edərək Bakı buxtasına yaxınlaşdılar. Salyan kazarması anlayışı da elə həmin illərdə dövriyyəyə girib. Məlumdur ki, Salyan kazarması istilahı Bakıda müstəsnadır, anoloqu yoxdur. Və bu, Qəbulənin Salyanda törətdiyi hadisənin ardından rus ordusunun Salyanı tərk edib Bakıya çəkilməsi ilə əlaqədardır. Çox sonralar - 1911-ci ildə imperator II Nikolayın əmri ilə 206-cı Salyan alayı üçün tikilmiş şəhərcik ilk dövrlərdə Nikolayın oğlunun şərəfinə "Aleksey kazarmaları", yaxud sonralar sovetlər dövründə "Qızıl şərq" adlansa da, tarix öz yaddaşında Alekseyin də, Qızıl Şərqin də adını yaşatmadı; istər Rus imperiyası dövründə, istər sovetlər dönəmində rus hərbçiləri də, Azərbaycan xalqı da onu "Salyan kazarması" adı ilə tanıdı.

Rus hərb tarixçiləri Salyan kazarmasında yerləşdirilən Salyan alayının niyə məhz bu adla adlandırılmasına cavab veriblər. Vladimir Kolyabin yazır ki, "В России существовала традиция называть воинские части в честь захваченных городов. Надо полагать, что Сальянский полк был назван так в честь крепости Сальян, взятой Русской армией в ходе военной кампании 1723 года". ("Rusiyada hərbi hissələrin ələ keçirilən şəhərlərin şərəfinə adlandırılması ənənəsi var idi. Çox güman ki, Salyan alayı da 1723-cü il hərbi yürüşü zamanı rus ordusu tərəfindən ələ keçirilmiş Salyan qalasının şərəfinə belə adlandırılıb".)

Müasir rus hərb tarixçiliyi məsələyə tam olmasa da, qismən aydınlıq gətirir. Amma maraqlıdır, əgər ruslarda alayların işğal etdikləri şəhərlərin adı ilə adlandırılması ənənəsi vardısa, niyə Bakıda "Şamaxı kazarması", "Qusar kazarması", "Dərbənd kazarması" yoxdur? Qusar alayı Qusarda, Şirvan alayı Şamaxıda, Yelizavetpol alayı Gəncədə, Zaqatala alayı Zaqatalada yerləşdiyi halda, bölgələr baxımından Bakıda dislokasiya olunan yeganə alay Salyan alayı idi və onun da yerləşdirildiyi məkan "Salyan kazarması" adlandırılırdı. Həm də 1911-ci ildə indiki yerinə köçürülsə də, Nikolaydan əvvəl, XIX yüzilin əvvəllərində Salyan kazarması İçərişəhərdə yerləşirdi.

İstər-istəməz "Salyan kazarmaları" istilahının oyandırdığı intiba birmənalı şəkildə Qəbulə xanımın adını, 1724-cü ildə baş vermiş hadisəni yansıdır... Mübahisəli görünə bilər, amma hələlik ortada bunu təkzib edəcək hansısa dəlil də yoxdur. Salyan kazarması zabitləri öldürülərək Salyandan çıxarılmış Salyan alayının xatirəsinə elə bu adla da tarixə keçib.

**Bəs Qəbulə necoldu?**

Yuxarıda qeyd etmişdim. Bəzi qaynaqlarda Razinin əsir götürdüyü salyanlı xanım da Salyan xanının Qəbulə adlı qızı kimi təqdim edilir. Bunu nəzərə alaraq, Azərbaycan tarixçiləri Qəbulə xanımın həyatının əvvəlki dönəmlərini də, sonrakı mərhələlərini də dərindən tədqiq etməlidirlər.

Amma əfsus ki, Qəbulə mövzusunda kələfin ucu çox qarışdırılıb. Sovet dövründə yazılmış "Azərbaycan tarixi" kitablarında, ümumiyyətlə 1724-cü ildə Salyanda baş verən hadisə, ya ötəri xatırlanır, ya da heç xatırlanmır. Yaxud rusyönlü qaynaqlarda eyni adamların adı fərqli şəkillərdə yazılır. Həsən bəy bəzən Qusan bəy, yaxud Asan bəy kimi, Qəbulənin adı, bəzən sadəcə, knyaginya Xanum şəklində təqdim edilir. Yaxud Qəbulənin anası bəzən Xədicə, bəzən isə Fatimə olaraq tanıtdırılır.

Digər ciddi bir məqam. Xəzərətrafı bölgələr Rusiyaya ilhaq ediləndən sonra bu yerlərin hərbi və mülki işləri Dolqorukova tapşırılmışdı. Dolqorukovun zamanında Salyan hakimindən başqa Dərbəndin də, Bakının da əvvəlki hakimləri - naibləri öz vəzifələrində qalmışdılar.

*Bəs Qəbulə necoldu?*

Guya Salyan hadisələri ilə bağlı Salyana getdiyi bildirilən Bakı xanlarının əcdadı Dərgahqulu bəy Bakı komendantı Ostafyevə belə bir xəbər göndərmişdi ki, o, "Salyan hakiməsini öldürüb, Xanımın başını gətirib Bakı komendantına təhvil verəcək". Olubmu belə bir hadisə? Rusiya Xarici Siyasət Arxivində qorunan bir sənəddə yazılmış bu fakt nə dərəcədə səhihdir, bilinmir. Amma diqqətçəkən məqam budur ki, Dərgahqulu bəy 1727-ci ildə yenidən Bakının sultanı təyin olunub və Bakı xanlarının silsiləsi də onun övladları ilə davam edib.

Siyasiləşmiş tarixçilər Salyandakı hərəkəti ilə Peterburqu silkələyən o böyük xanımı tarixin qapısı arxasında saxladılar. Abidələşməsinə imkan vermədiər. Qəbuləni öz halal ocağına - övladlarının yaddaşına yaxın buraxmadılar... Halbuki Salyanın girişində Qəbulə xanımın heykəli ucaldılmalıydı... Nəinki heykəli olmadı. Bu qəhrəman qadının adı belə unutduruldu. Ondan sonra doğulan qız uşaqlarına Qəbulə adını verən olmadı; adını tarix səhnəsindən sildilər. Sonrakı aqibətindən bir sətir belə yazılmadı. O, sonuncu Qəbulə oldu...

Uzun illər Qəbulə xanımın tarix kitablarımızda nəzərə çarpmayan varlığı dərin və düşündürücü suallar doğurur. Məsələ burasındadır ki, I Pyotr salyanlı bir türk qızını özü və səltənəti üçün bu miqyasda təhlükə mənbəyi olaraq görürsə, sıradan qaçaqların belə xalq qəhrəmanı kimi ideallaşdırıldığı sonrakı dövrlərdə də Qəbulə xanım qəsdən unudulub və unutdurulubsa, deməli, onun nadir şəxsiyyəti barədə dərindən düşünməyə dəyər...

**Qəbulənin ilk portreti**

Qəbulə xanm barədə əvvəlcə 2012-ci ildə "Darülmöminin" kitabımda yazmışdım.

Sonra "Ədəbiyyat qəzeti"nin 31 yanvar 2025-ci il tarixli sayında yazdım. Məqaləm dərc olunandan sonra, yəni ertəsi gün günorta saatlarında Xalq rəssamı Sakit Məmmədov mənə eskiz halında bir qadın portreti göndərib, "Bu qadın kimdir?" deyə soruşdu. "Qəbulədir - dedim, Qəbulənin metafizik bir aləmdən baxan obrazıdır".

Sakit Məmmədov "Yazını oxuyandan sonra yatıb bu qadını yuxuda gördüm" dedi. Qəbulə 300 ildən sonra, bəlkə də ilk dəfə kiminsə yuxusuna gəlmişdi. Yaxşı ki yuxusuna gəldiyi adam rəssam idi. Özü də yaxşı ki, o rəssam Qəbulənin eloğlusu idi. Həm də yaratdığı gözəl qadın obrazları ilə dünyada məşhur olan bir rəssam.

Nəhayət, iki həftədən sonra tablo tamamlandı. Tamamlanmış əsərdə Qəbulə xanım çox gözəldir. Rus ordusunun əslən, yəqin ki, çeçen olan zabiti Zambulatov Qəbulənin gözəlliyinə heyran olmasaydı, komandiri olduğu batalyonun zabit heyətini onun evinə aparardımı? Bir halda ki, "ondan ehtiyatlı olmaq lazımdır ki, bir fəlakət üz verməsin" deyə imperatorun tövsiyəsi də vardı...

Sakit Məmmədov elə bir dövrün qadınının portretini yaradıb ki, o dövrdə yaşayan başqa bir qadınımızın portreti, ümumiyyətlə yoxdur, olmayıb. Çünki o dövrdə dəzgah boyakarlığı nəinki bizdə, heç Rusiyada, İranda, Osmanlıda mövcud deyildi.

O dövrdə nə Rusiyada, nə Osmanlıda, nə də İranda portret janrı gəlişmişdi. Pyotr rus rəssamlığını inkişaf etdirmək üçün sənət yetənəyi olan gəncləri Avropaya - İtaliyaya, Fransaya göndərir, yeni rəssamlar nəslinin yetişməsinə çalışırdı. Dövrün portretlərini isə Rusiyada rus rəssamları deyil, Avropa rəssamları yaradırdılar. Yaxud II Təhmasibin dövründə, təbii ki, səfəvi sarayında da portret yox idi və miniatür janrı tənəzzül edirdi. III Əhmədin zamanında isə Osmanlı Lalə dövrünü yaşayırdı. İstanbulun Lalə dövrünün detalları barədə məlumatı bu gün yalnız o dövrdə İstanbulda yaşamış fransız rəssamı Jan Batist Vanmurun əsərləri verir. Amma Rusiyaya, İrana rəğmən, türklər portreti iki yüz il əvvəl italyan rəssamı Bellinin fırçasından tanımışdı...

Qəbulə xanımın yaşadığı dövr - XVIII yüzilin 20-ci illəri dünya rəssamlığında borakko dövrünün son mərhələsidir. Sakit Məmmədov onsuz da əvvəlki əsərlərində, xüsusən, Azərbaycanın İkinci Qarabağ savaşındakı zəfərindən sonra yaratdığı "Qarabağnamə" əsərində miniatür rəssamlığı ilə borakkonu uzlaşdıran nadir rəssamlardan biri kimi özünü təsdiq etmişdi. Düzdür, onun "Qarabağnamə"dən əvvəl yaratdığı "Dünyadan qovulanlar" tablosu stil və fəlsəfə baxımından borakko tərzində çəkilmişdi. Qəbuləni isə o, rənglərin ekspressiyası baxımından öz ənənəvi üslubunda və cərəyanında - opalizm cərəyanında yaratdı. Qəbulənin ilk portretində Salyan hakiməsinin siyasiliyini, əsilzadəliyini və gözəlliyini bütövlükdə təqdim etdi. Salyan hakiməsi Qəbulə xanım - əsilzadə və gözəl qadın. 300 ildən sonra övladlarının və xalqının yaddaşına bu şəkildə qayıdır...



*Azər TURAN*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






## Ekoloji maariflənmədə mühüm addım!

# Əsrarəngiz milli parklarımız...

**Qədim mədəniyyətə, zəngin bioloji müxtəlifliyə malik olan Azərbaycan fövqəladə əhəmiyyətli təbii irsə malikdir. Bioloji müxtəlifliyin qorunub saxlanılmasında xüsusi mühafizə olunan ərazilərin rolu əvəzedilməzdir. Məhz xüsusi mühafizə olunan təbiət ərazilərinin fəaliyyəti nəticəsində nadir və nəsli kəsilməkdə olan flora və fauna növlərinin qorunub saxlanılmasına imkan yaranıb. Elə bundan irəli gəlir ki, ölkəmizdə təbiətin qorunması, ona qayğı və diqqət ilbəil artır.**
**Hazırda respublikamızın müxtəlif bölgələrində xüsusi qorunan ərazilər var ki, onlardan biri də milli parklardır. Milli parklar xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi ərazilərdir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkəmizdə yaradılan milli parklar təbiətin mühafizəsində, bioloji müxtəlifliyin qorunmasında əhəmiyyətli rol oynayır. Milli parklarımızın hər birinin özünəməxsus zəngin bioloji müxtəlifliyi əhalinin ekoloji maariflənməsində böyük əhəmiyyət daşıyır. İnsanlar Milli parklarımızın bioloji resurslarının, zəngin flora və faunasının ətraf mühitə müsbət təsir göstərdiyinin, əhalidə ruh yüksəkliyi yaratdığının, onlara müsbət enerji verdiklərinin şahidi olub. Onu da bildirək ki, milli parklarımız turizmin inkişafı üçün də potensial iqtisadi imkanlar deməkdir.**
**İlk dəfə 2003-cü ildə Azərbaycanda milli park yaradılıb. Bu ənənə çərçivəsində həmin dövrdən başlayaraq ölkəmizdə təbiətin mühafizəsi ilə bağlı milli parkların və qoruqların sayı artırılıb və onların fəaliyyəti təkmilləşdirilib.**

## Daha 2 milli park...

Prezident İlham Əliyevin 14 iyul 2025-ci il tarixli sərəncamı ilə Azərbaycanda daha iki yeni milli park - Axar-Baxar və İlisu milli parkları yaradılıb.

Yeni milli parkların yaradılması ilə qorunan təbiət ərazilərinin sahəsi genişləndirilib. Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi məlumat yayıb.

Qeyd edilib ki, bu qərar Azərbaycanda, eləcə də Cənubi Qafqaz regionunda xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsi, ekoturizmin inkişafı, yerli icmaların ekoloji təşəbbüslərə inteqrasiyası, ətraf mühitin dayanıqlı idarə olunması və bütövlükdə regionun bioloji müxtəlifliyinin qorunması baxımından mühüm və tarixi hadisə kimi qiymətləndirilir:

“Yeni yaradılmış Azərbaycanın unikal təbiət komplekslərindən biri olan Axar-Baxar Milli Parkı Samux, Yevlax və Qax rayonlarının əsasən dövlət ehtiyat fondu torpaqlarında formalaşdırılıb, ümumilikdə 23 901,99 hektar ərazini əhatə edir. İlisu Milli Parkı isə fəaliyyətdə olan İlisu Dövlət Təbiət Qoruğunun bazasında yaradılıb. Milli Park Qax və Zaqatala rayonlarının ərazisində yerləşir və ümumi sahəsi 13 966 hektardır”.

## Milli parklar ölkə ərazisinin təxminən 11faizini təşkil edir

Bildirilib ki, Azərbaycanda Xüsusi Mühafizə olunan Təbiət Ərazilərinin (XMOTƏ) sahəsi 892 855,78 hektar olmaqla ölkə ərazisinin ümumi sahəsinin 10,31 faizini təşkil edirdi: “Yeni yaranan milli parklar hesabına hazırda bu rəqəm 913 342,17 hektar olmaqla ölkə ərazisinin ümumi sahəsinin 10,54 faizinə yüksəlib. Hər iki milli parkın yaradılması həmin ərazilərin zəngin təbii və tarixi irsinin əhəmiyyətli turizm potensialına çevrilməsi baxımdan əhəmiyyətlidir. Eyni zamanda yeni parklar regionda məşğulluğun artmasına, yerli əhalinin rifah halının yüksəlməsinə, ekoloji maarifləndirmə yolu ilə ekosistemlərdən dayanıqlı istifadəyə əsaslanan sosial-iqtisadi imkanların genişlənməsinə şərait yaradacaq”.

Göründüyü kimi, milli parklarımızın hər birinin özünəməxsus zəngin bioloji müxtəlifliyi əhalinin ekoloji maariflənməsində böyük əhəmiyyət daşıyır. İnsanlar milli parklarımızın bioloji resurslarının, zəngin flora və faunasının ətraf mühitə müsbət təsir göstərdiyinin, əhalidə ruh yüksəkliyi yaratdığının, onlara müsbət enerji verdiklərinin şahidi olub bu tarixi sərvətin, zənginliklərin qorunub saxlanılmasının həyati vacibliyini dərk edirlər. Dövlətimiz milli parkların infrastrukturunu təmin etməklə yanaşı orada turistlər üçün lazımı şərait yaradır, yollar, cığırlar çəkir, marşrutlar təşkil edir, həm də onun təbliğatını həyata keçirir. Belə zənginlikləri qorumaqla gələcəyimizi qorumuş oluruq...

***Sahib***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti üzrə hazırlanmışdır**

# Sürünən zəhərlilər...

## İlan sancması zamanı nələrə diqqət edilməlidir?

Yəqin ki, bir çox insanın qorxduğu heyvanlar arasında ilanlar ön sırada yer alır. Hətta bəzilərimiz bu canlını fotolarda belə görməkdən məmnun deyilik. Azyaşlı uşaqlar üzərində araşdırma aparan alimlər bu nəticəyə gəliblər ki, daha öncə heç bir heyvan görməmiş körpələrə belə müxtəlif heyvan fotoları göstərildikdə ilan olan fotolara fərqli reaksiya verirlər.

İlanlar insan həyatında və müxtəlif xalqların mədəniyyətində həmişə xüsusi yer tutub. Onlar mifologiyada ya cəhənnəm məxluqları kimi təsnif edilir, ya da ilahiləşdirilib ibadət olunurdular.

Yeri gəlmişkən, bu gün - iyulun 16-sı Ümumdünya İlan Günü kimi qeyd olunur. İlanların maraqlı xüsusiyyətləri də yetərincə çoxdur. Hazırkı təsnifata görə, dünyada 3600-ə yaxın ilan növü var.

### İlanların çoxu faydalıdır....

3600-ə yaxın ilan növündən yalnız 600-nün, təqribən 17 faizinin zəhəri mövcuddur. İnsanı öldürə biləcək zəhərə malik ilan növlərinin sayı isə daha az - 232-yə yaxındır.

İnsanlar lap qədim zamanlardan ilanlardan faydalanmağa çalışıb. Qədim Romada bəzi ailələr öz həyətlərində, evlərində ilanlar bəsləyib saxlayarlarmış ki, xəstəlik törədən, ziyan verən siçanların, siçovulların kökü kəsilsin.

Bu gün də tibbi-əczaçılıq və kosmetika sənayesində ilan zəhəri qiymətli tibbi xammal kimi geniş tətbiq olunur. İlan zəhərindən istifadə etməklə qan-damar, əsəb, dəri-əzələ sistemi xəstəliklərinin müalicəsində, cərrahiyədə işlədilən müxtəlif dərman preparatları istehsal edilir.

### Bütün ilanlar kar olur...

İlanların xarici qulaq seyvanı olmadığından ətrafdakı səsləri eşitməkdən məhrumdurlar. Bu, onların aciz olduqları mənasına gəlmir. Onlar ətrafdakı titrəşimləri hiss etmədə ustadırlar. Həmçinin ilanların ağız boşluğunun arxasında xüsusi bir orqan var. Lamisə orqanı, digər adlarıyla “Jacobso”n orqanı və ya vomeronazal orqan olaraq da bilinən bu orqan ilanın dili vasitəsilə ətrafdan topladığı qoxu molekullarını analiz edərək beynə sinirlərlə siqnallar göndərir. Bütün ilanların haça dillərini tez-tez çölə çıxardıb, yenidən içəri soxmasının səbəbi budur.

### İlanların qisası...

Xalq arasında geniş yayılmış inanclardan biri odur ki, kimsə ilan öldürsə, həmin ilanın cütü (ikinci versiyada qardaşları) gəlib ilanın qisasını alacaq. İlanlar əsasən yumurta qoyaraq çoxalır (bəzi gürzə və digər ilan növləri istisnadır). Bu isə o deməkdir ki, ilanlar yumurtadan çıxdıqları andan etibarən valideyn qayğısından məhrum olurlar və elə dünyaya gəldikləri ilk saniyələrdən etibarən qardaşlar arasında qida rəqabəti başlayır. Yumurtadan çıxan balalar hər biri fərqli bir yerə ayrılaraq öz həyatlarını davam etdirirlər. Bəzən yumurtadan yeni çıxan balalardan birini öldürən insanlar digər ilanları gördükdə onların qisas almaq üçün gəldiyini zənn edirlər... Amma belə deyil, əslində heç bir ilan qardaşının və ya cütünün qisasını almaq üçün gəlmir.

### Ac qarnına nə qədər dayana bilər?

İnsanlardan fərqli olaraq, yetkin ilanlar bir neçə ay qidasız yaşaya bilər. Bəzi ilan növlərinin ovlarını həzm etməsi 3-5 gün çəkir. İlanlar enerjilərini çox sərf etmədikləri üçün tez-tez yeməyə ehtiyac duymurlar. Xüsusilə, qəfəsdə olan ilanlar çox az qidalanır. Kiçik və cavan ilanlar həftədə bir dəfə, yetkin ilanlar isə ayda bir dəfə yemək yeyirlər. Nəhəng pitonlar və anakondalar isə aylarla yeməksiz qala bilərlər.



### Hazırda çox təhlükəlidirlər...

Məlumdur ki, havalar istiləşən kimi ilan sancmaları da artır Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinin həkim-toksikoloqu Aynur Məmmədova “Yeni Azərbaycan”a ilan sancması barədə bəzi mühüm məqamlarla bağlı açıqlama verib: “Cari ildə Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinə ilansancma ilə bağlı ilk müraciət aprelin 3-də edilib. Həmin şəxsin vəziyyəti ağır idi, müalicə etdik, sağaldı. Daha sonra may ayında 6, iyunun ötən dövründə isə 5 nəfər ilansancma ilə bağlı şöbəyə müraciət edib. Bu ay isə 6 nəfər mərkəzimizə ilan sancması ilə gətirilib. Ölüm hadisəsi qeydə alınmayıb. Ən ağır xəstə bu yaxınlarda Qax rayonundan gəlmişdi. İlan xəstənin çiynindən sancmışdı. Vəziyyəti çox ağır idi. Qan köçürdük, zərdab vurduq, 3 həftədən sonra tam sağlam vəziyyətdə evinə getdi. Bundan başqa, Tərtər rayonunda da ağır xəstə gəlmişdi, zərdab vuruldu, qan köçürüldü və evə buraxıldı.

Hazırda ilanlar çox təhlükəlidir. Qış yuxusundan ayılıblar, çinədanları zəhərlə doludur, ona görə də çinədanlarını boşaltmalıdırlar”.

### İlan sancanda nə etməli?

A.Məmmədova qeyd edib ki, ilan sancanda panikaya düşmək, qaçmaq, qışqırmaq olmaz, bu, təhlükəlidir: “Həmin an yaranın yeri su, ətir, spirt və digər təmizləyici vasitələrlə yuyulmalı, oraya soyuq nəsə qoyulmalıdır. Yaxud təmiz tənzifi antiseptik vasitə ilə isladıb həmin yerə qoymaq lazımdır. Ağrıkəsici varsa, vurula bilər. Yaranı çərtmək, yarmaq olmaz. Yara sterildirsə, hər hansı müdaxilə olunubsa, bu, ikinci infeksiyanın bədənə daxil edilməsi deməkdir. İlan sancan şəxs zərdab vurulmaq üçün 5 saatadək xəstəxanaya çatdırılmalıdır. Xəstəxanada müvafiq müalicələr aparılır. Düzgün yardım olunduqda, xəstə sağalır. İlansancmadan ölüm hadisəsi çox az qeydə alınır. Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsində ilan sancan vətəndaşların müalicəsi üçün hər cür şərait mövcuddur. Zərdabımız var. Hər gün 10 nəfər ilan sancan vətəndaşı qəbul edə bilərik”.

***Yeganə BAYRAMOVA***

*İdman*

## Azərbaycanın kamandan oxatma hakimləri beynəlxalq sertifikatlaşdırma proqramlarına cəlb olunacaqlar



Azərbaycanın kamandan oxatma hakimləri beynəlxalq sertifikatlaşdırma proqramlarına cəlb olunacaqlar.

Bu barədə “Report”a Azərbaycan Kamandan Oxatma Federasiyasının (AKOF) mətbuat xidmətindən məlumat verilib.

Sözügedən məsələ ötən gün AKOF-un prezidenti Anar Quliyevlə Dünya Kamandan Oxatma Federasiyasının rəhbəri Uğur Erdener arasında baş tutan görüş zamanı razılaşdırılıb.

Görüşdə həmçinin Azərbaycan idmançılarının beynəlxalq turnirlərdə iştirak imkanlarının artırılması və məşqçilərin qabaqcıl təcrübələrə yiyələnməsi üçün ortaq layihələrin həyata keçirilməsi ilə bağlı məsələlər də müzakirə edilib.

Qeyd edək ki, ötən gün Dünya Kamandan Oxatma Federasiyasının rəhbəri Uğur Erdener Azərbaycana işgüzar səfəri çərçivəsində AKOF-un prezidenti Anar Quliyevlə bir araya gəlib. Qonaq həmçinin yeniyetmə və gənclərdən ibarət yığmaların açıq havada keçən təlim-məşq prosesini izləyib.

## III MDB Oyunlarında 8 ölkədən 1846 idmançının iştirakı təsdiqlənib

III MDB OYUNLARI
AZƏRBAYCAN
2025

Azərbaycanda keçiriləcək III MDB Oyunlarında 8 ölkədən 1846 idmançının iştirakı təsdiqlənib.

Bu barədə “Report”a Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən məlumat verilib.

Bu günə olan məlumata əsasən, yarışa MDB məkanını təmsil edən 8 ölkədən (Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Özbəkistan, Tacikistan, Türkmənistan) 1846 idmançı və 2666 nümayəndə qatılacaq. Son olaraq Türkmənistan idmançılarının ölkəmizə gələcəyi təsdiqlənib.

Azərbaycanın 349, Rusiyanın 263, Qazaxıstanın 259, Özbəkistanın 257, Belarusun 255, Tacikistanın 202, Türkmənistanın 170, Qırğızıstanın 85 idmançısının turnirdə mübarizə aparacağı dəqiqləşib.

Yarışlar 23 idman növü (kamandan oxatma, badminton, 3x3 basketbol, boks, kanoe, çövkən, qılıncoynatma, futbol U-16, yunan-Roma güləşi, cüdo, karate, bədii gimnastika, avarçəkmə, sambo, güllə atıcılığı, stend atıcılığı, üzgüçülük, stolüstü tennis, taekvondo, batut gimnastikası, voleybol, qadın güləşçi, sərbəst güləş) üzrə 12 məkanda keçiriləcək.

İlkin mərhələdə yalnız MDB ölkələrinin nümayəndə heyətləri qeydiyyatdan keçirilir. İkinci mərhələdə isə qeydiyyat MDB-yə üzv olmayan, yarışda xüsusi dəvət əsasında iştirak edən ölkələrin nümayəndə heyətləri üçün aparılır. Ümumilikdə, Oyunlara dünyanın 23 ölkəsindən 5500-ə yaxın iştirakçının qatılması gözlənilir.

Qeyd edək ki, III MDB Oyunları 2025-ci il 28 sentyabr - 8 oktyabr tarixlərində Azərbaycanın yeddi şəhərində - Gəncə, Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndidə təşkil olunacaq. Yarışın açılış mərasimi sentyabrın 28-də, bağlanış mərasimi isə oktyabrın 8-də Gəncə şəhər stadionunda baş tutacaq.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4328**
**Sifariş: 1484**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova